www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 sentyabr 2016-cı il Çərşənbə № 198 (6519) Qiyməti 60 qəpik

**Xəbər**

## Eldar Mahmudovun oğlu Nardaranda saxlanıldı

yazısı səh.10-da

**Gündəm**

### Aprel dərsini unudan işğalçı - onu yenidən keçməli olacaq...



Danışıqları sabotaj edən düşmən tərəfin arxayançılığı tam əsassızdır; hərb, yoxsa sülh seçimini erməni xalqı edəcək - hansını seçsə, onu da alacaq

yazısı səh.11-də

### Lənkəranda sudan kütləvi zəhərlənmə

yazısı səh.2-də

### Agentura şəbəkəsi necə maliyyələşir və formalaşır - sabiq MTN-çilər danışır

yazısı səh.10-da

### Vergilər naziri Nəcməddin Sadıkova qarşı - oğlunu müşavirlikdən çıxardı

yazısı səh.7-də

### Aygün Bəylərin qardaşı marixuana toxumuna görə qatil olub

yazısı səh.14-də

### Əmlak Komitəsi "MTN çetesi"nin mal-mülkünü siyahılaşdırıb qurtara bilmir

yazısı səh.4-də

### Ölkənin maliyyə bosları niyə ictimaiyyətə açıqlama vermir?

yazısı səh.9-da

### "Qara qızıl"ı "ağ qızıl" əvəz edə bilər, amma...

yazısı səh.12-də

### Natiq Cəfərli girov müqabilində də azadlığa buraxılmadı

yazısı səh.3-də

### Dollar Bakıda qalxır, gözlər isə Amerikadadır

yazısı səh.13-də

### Müsavat Milli Şuranın mitinqinə dəstək verəcək

yazısı səh.3-də

## SOCAR-ın dünyada artan nüfuzu rəqiblərini qorxuya salıb

# YUNAN HÖKUMƏTİNİN BAKI İLƏ CIĞAL "QAZ OYUNU" - ARXASINDA KİM VAR?

Yunanıstanın DESFA-nın özəlləşdirilməsi ilə bağlı keçirilən tenderə özbaşına dəyişiklik etməsi Azərbaycan tərəfinin ciddi narazılığına səbəb olub; belə görünür ki, yunan hökumətinin "qarnının ağrısı" başqadır və bu oyunların arxasında Kreml hakimiyyəti dayana bilər, çünki...




yazısı səh.9-da

## General Çovdarov 3 milyonu Tağı Əhmədovdan....döyə-döyə alıb - şok təfərrüat

MTN generalının "1 milyon ver" sifarişini rədd edən sabiq rəisi ağır cəzalandırıblar; müstəntiqin "bu qədər pul haradandır", sualı qarşısında isə elə bir yalan deyib ki...

yazısı səh.6-da



### Deputatdan hökumətə təcili tədbirlər görmək çağırışı

yazısı səh.7-də



### İlhamə Quliyevanın mülklərini ələ keçirmək üçün müdhiş plan

yazısı səh.6-da



Vaqram Ağacanyan

*Erməni jurnalist "DQR"də gördüklərindən yazdı:*

### "Dağıdılmış iqtisadiyyat, ağır sosial şərait, kütləvi kasıblıq..."

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016



## "İstəyirəm Faiq uşaqlarının yanında olsun"

### Faiq Əmirlinin həyat yoldaşı danışdı

**"Faiq Əmirlinin imam olması, moizə oxuması ilə bağlı ona verilən ittihamı absurd bir şey, gülünc kimi qarşılayıram. Necə qarşılamalıyam?" Bu barədə "Azadlıq" qəzetinin həbsdə olan maliyyə direktoru Faiq Əmirlinin həyat yoldaşı Lalə Əmirli "Amerikanın səsi"nə müsahibəsində bildirib.**

"Faiq Əmirlinin ümumiyyətlə fətulla gülənçilərlə əlaqəsi olubmu- sualını Lalə Əmirli gülüşlə qarşılayır.

"Olmayıb. Qətiyyən olmayıb. Olsa idi, yəqin gülüşlə qarşılamazdıq", o qeyd edib.

Onun sözlərinə görə, axtarış zamanı evlərindən toy kasetlərini, cizgi filmi kasetlərini, bir neçə fləş kartı, "Azadlıq" qəzetinin qaiməlırini götürüblər, ən əsası şəxsi maşınını aparıblar. L.Əmirli "şəxsi avtomobilin istintaqa nə aidiyyəti var" sualına cavab ala bilmədiyini deyib.

"Sonuncu dəfə sentyabrın 4-də müraciət etmişəm. Eləcə deyirlər, gözləyin, gözləyin. Nəyi gözləyim, bilmirəm", o bildirib. Həyat yoldaşı hələ də Faiq Əmirli ilə görüşə bilməyib: "Müstəntiqə müraciət edəcəm, görüm görüş verirmi. Onun mədəsi də ağrıyır".

Lalə Əmirlli həyat yoldaşının tezliklə həbsdən azad edilməsini istəyir: "İstəyirəm Faiq uşaqlarının yanında olsun. Başqa sözüm yoxdur".

Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimlinin köməkçisi, "Azadlıq" qəzetinin maliyyə direktoru Faiq Əmirli avqustun 20-də saxlanılıb. F.Əmirli Cinayət Məcəlləsinin 283.1 (Milli, irqi, sosial və ya dini düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə) və 168.1-ci (Dini məzhəbləri yaymaq və dini ayinlərin icrası adı altında fəaliyyət göstərən və bu fəaliyyətlə ictimai asayişi pozan, yaxud vətəndaşların sağlamlığına zərər vuran və ya formasından asılı olmayaraq vətəndaşların hüquqlarını pozan, habelə vətəndaşların qanunla müəyyən edilmiş vəzifələrini yerinə yetirməkdən yayındıran qrup təşkil etmə, ona rəhbərlik etmə və ya belə qrupda iştirak etmə) maddələri ilə təqsirli bilinir.

Avqustun 22-də Bakının Nəsimi Rayon Məhkəməsi hakim Şəlalə Həsənovanın sədrliyi ilə onun barəsində üç ay həbs-qətimkan tədbiri seçib. Sentyabrın 2-də Bakı Apelyasiya Məhkəməsində hakim Həsən Əhmədovun sədrliyi ilə Faiq Əmirli barəsində həbs qərarından verilən apelyasiya şikayəti təmin edilməyib.

## Olimpiya çempionuna vəzifə verildi

**Olimpiya və dünya çempionu güləşçi Fərid Mansurova yüksək vəzifə verilib. O, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri təyin olunub. Lent.az-ın məlumatına görə, bu barədə nazirliyin mətbuat katibi Səmayə Məmmədova bildirib. Xatırladaq ki, həmin şöbənin müdiri olan Mirkamil Rəhimov bir müddət əvvəl dünyasını dəyişib.**

"Qaya Mətbuat Yayımı" MMC!
- **İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Lənkəranda sudan kütləvi zəhərlənmə

**Lənkəranda kütləvi zəhərlənmə faktı qeydə alınıb. APA-nın cənub bürosunun məlumatına görə, hadisə rayonun ucqar yaşayış məntəqələrindən olan Daştatük kəndində baş verib. Sentyabrın 5-də sözügedən kənddən Lənkəran Mərkəzi Rayon Xəstəxanasının (MRX) infeksiya şöbəsinə zəhərlənmə diaqnozu ilə 56 nəfər müraciət edib. Onların əksəriyyəti uşaqlardan ibarət olub.**




Region TV xəbər verir ki, Lənkəranın dağ kəndi olan Daşdatükdə əhali arasında, xüsusən də uşaqlarda son üç gün ərzində halsızlıq, ürəkbulanma və qusma halları müşahidə olunub. Zəhərləndikləri ehtimal edilən xəstələrin ev şəraitində müalicəsi mümkün olmadığından onlar xəstəxanaya gətiriliblər. İnsanlar bunun hansı səbəbdən baş verdiyini bilmədikləri deyirlər. **Nəcibə Muradova - kənd sakini:** "Axşam oğlum dedi ki, mənə soyuqdur. Yorğanla üstünü örtdük. Artıq qızdırma onu tutmuşdu. Mən iki ədəd qızdırmaya qarşı dərman verdim. Sonra nəvəm həkimə zəng etdi, o da dedi ki, heç nə verməyin xəstəyə, gətirin onu xəstəxanaya". Aralarında iki nəfərin böyük olduğu xəstələrin əksəriyyəti 3-12 yaş arası uşaqlardır. Hadisə ilə bağlı Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin bir qrup nümayəndəsi Lənkərana ezam olunub. Zəhərlənmənin kənd ərazisindəki içməli su mənbəyinin başqa bir mənbə ilə qarışması nəticəsində baş verdiyi ehtimal olunur. Bu məqsədlə həmin su mənbəyindən nümunələr götürülərək Bakıya göndərilib.

Qeydə alınmış zəhərlənmə faktı barədə yekun rəy laboratoriya müayinəsinin cavabından sonra məlum olacaq. Lənkəran Rayon Mərkəzi Xəstəxanasından onu da bildirdilər ki, xəstələrə zəruri tibbi yardımlar göstərilib və əksəriyyətinin vəziyyəti yaxşılaşıb.



## NİDA-çı gəncin həbs müddəti artırıldı

**Xətai Rayon Məhkəməsində NİDA Vətəndaş Hərəkatının üzvü Bayram Məmmədovun barəsində seçilmiş həbs-qətimkan tədbiri uzadılıb. Lent.az-ın məlumatına görə, hakim Habil Məmmədovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, B.Məmmədovun barəsində seçilmiş həbs-qətimkan tədbiri 2 ay 1 gün - noyabrın 11-nə kimi artırılıb.**

Qeyd edək ki, NİDA Vətəndaş Hərəkatının üzvü B.Məmmədov Cinayət Məcəlləsinin 234.4.1-ci (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 234.4.3-cü (külli miqdarda törədildikdə) maddələri ilə ittiham olunub. Rəsmi məlumata görə, onun üzərindən və evindən ümumilikdə iki kq-dan artıq heroin götürülüb. Xətai Rayon Məhkəməsində hər iki şəxs barəsində dörd ay müddətinə həbs-qətimkan tədbiri seçilib.



## AXCP üzvünü atasının yasına buraxdılar

**AXCP sədrinin müşaviri Məmməd İbrahim sentyabrın 6-da həbsdən buraxılıb. Onun atasının yas mərasimində iştirakına icazə verilib. Bu barədə AzadlıqRadiosu-na onun vəkili Yalçın İmanov məlumat verib. Vəkilin dediyinə görə, M.İbrahimə bir gün yarımlıq icazə verilib. "Məmməd İbrahim 16 saylı cəzaçəkmə müəssisəsindən çıxıb, Yevlağa yas məclisinə gedib. O, sentyabrın 7-də günortadan sonra müəssisəyə qayıtmalıdır" deyə, Y.İmanov bildirib.**

Məmməd İbrahimin atası sentyabrın 3-də vəfat edib. M.İbrahim AXCP-dən ayrılmış Mikayıl Quliyevin şikayəti əsasında ötən il sentyabrın 30-da həbs olunub. Mikayıl Quliyevi vurmaqda ittiham olunan Məmməd İbrahimə CM-in 221.1-ci (xuliqanlıq) maddəsi ilə ittiham irəli sürülüb.

Bir müddət sonra daha iki nəfər- Oruc Vəliyev və Məhəmməd Qurbanov da şikayət verərək bildiriblər ki, insident zamanı ayırmaq istərkən Məmməd İbrahim onları da vurub.

Bundan sonra M.İbrahimin ittiham maddəsi ağırlaşdırılıb və CM-in 221.2.2-ci maddəsinə tövsif olunub. O, 3 il azadlıqdan məhrum edilib. Ancaq M.İbrahim ittihamı qəbul etmir və həbsinin siyasi sifariş olduğunu bildirir.

## Nəşriyyat "Azadlıq" qəzetinin çapını dayandırdı

**"Azərbaycan" Nəşriyyatı "Azadlıq" qəzetinin çapından qeyri-müəyyən vaxta qədər imtina edib.**

Lent.az azadliq.info-ya istinadən xəbər verir ki, səbəb qəzetin nəşriyyata olan borclarıdır. "Azərbaycan" Nəşriyyatı sentyabrın 5-nə qədər borcun əhəmiyyətli hissəsinin ödənilməsi üçün "Azadlıq"a vaxt verib. Amma deyilən müddətdə vəsait ödənilmədiyi üçün qəzetin çapı dayandırılıb.

Qeyd edək ki, "Azadlıq" qəzetinin yayım və maliyyə direktoru Faiq Əmirli ötən ay Fətullah Gülən hərəkatı ilə bağlı açılmış cinayət işi çərçivəsində həbs edilib.

## Beynəlxalq Banka baş direktor təyin edilib

**Azərbaycan Beynəlxalq Bankının (ABB) rəhbərliyində dəyişiklik baş verib. "APA-Economics" xəbər verir ki, Abbas Nəsibov bankın baş direktoru təyin olunub. Qeyd edək ki, A. Nəsibov bundan öncə "Bank Standard" QSC-nin İdarə Heyətinin sədri olub. Qeyd edək ki, A. Nəsibov Elmir Həbibullayevi əvəzləyib. Sonuncu bundan əvvəl İdarə Heyətinin sədr müavini təyin olunub.**

## ANS-in işinə baxan hakim dəyişdirildi

**Sentyabrın 6-da 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsində ANS ÇM radiosunun MTRŞ tərəfindən lisenziyasının ləğvi ilə bağlı çıxardığı qərardan verdiyi şikayət üzrə məhkəmə davam edib.**

Lent.az-ın məlumatına görə, hakim Elçin Məmmədovun sədrliyi ilə keçirilən prosesdə ANS ÇM-in vəkili Raqif Mustafayev vəsatətlə çıxış edərək hakimə etiraz edib.

Vəsatət təmin edilib. Şikayət baxılması üçün hakim Müseyib Bayramovun icraatına verilib.

1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsində ANS ÇM radiosunun MTRŞ tərəfindən lisenziyasının ləğvi ilə bağlı çıxardığı qərardan verdiyi şikayət üzrə məhkəmədə yeni təyin olunan hakim Müseyib Bayramovun sədrliyi ilə keçirilən iclas təxirə salınıb. Hakim bildirib ki, işlə tanış olmadığı üçün iddia ərizəsinə baxa bilməz. Məhkəmə prosesi sentyabrın 9-da davam etdiriləcək.

Qeyd edək ki, MTRŞ-nin iyul ayının 18-də keçirdiyi iclasında Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq "ANS Müstəqil Yayımm və Media" Şirkətinin yayımını 18 iyul 2016-cı il saat 18:30-dan etibarən 1 (bir ) ay müddətinə dayandırılması, 25 oktyabr 2013-cü il tarixli TR 099 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə məhkəməyə iddia qaldırılması, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 23.2.8-ci maddəsinin tələbinə uyğun olaraq ANS ÇM-ə 25 oktyabr 2013-cü il tarixdə verilmiş TR 100 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə qərar qəbul edilib. Daha sonra ANS ÇM məhkəməyə müraciət edib.

Şirkət ANS ÇM-in lisenziyasının ləğv edilməsi ilə bağlı qərarın ləğv olunmasını və MTRŞ-dən 1 milyon manat tələb edir.

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016

**Milli Şura 11 sentyabra, Müsavat Partiyası isə 18 sentyabra təyin etdiyi mitinqə hazırlaşır. Qeyd edək ki, Müsavat Partiyası sentyabr ayında mitinq keçirmək barədə qərarını elan etdikdən bir gün sonra Milli Şura sentyabrın 11-nə mitinq təyin etdi.**



# Müsavat Milli Şuranın mitinqinə dəstək verəcək

## "Səni sevəcəyəm sən sevməsən də" prinsipi ilə davranışa adekvat qarşılıq isə hələ ki yoxdur...

Müsavat Partiyasının rəhbərliyi mitinqlərin birgə keçirilməsinin daha məqsədəuyğun olduğunu bəyan etsə də, qarşı tərəfdən müsbət reaksiya olmadı. Bəlli oldu ki, Milli Şurada söz sahibi olan AXCP birgə mitinq keçirmək üçün hətta müzakirələr belə aparmaqdan imtina edib. Müsavat Partiyası başqanının müavini Yadigar Sadıqov açıq şəkildə bəyan etdi ki, mitinqlərin birgə təşkili üçün AXCP ilə Müsavat Partiyası arasında müzakirələr aparılmayıb. Çünki qarşı tərəf müzakirələrdən imtina edib.

Maraqlıdır ki, bütün bunlara rəğmən Müsavat Partiyası AXCP-yə, Milli Şuraya əl uzatmaqda davam edir. Müsavat Partiyasının Divanı Milli Şuranın sentyabrın 11-də keçirəcəyi mitinqə dəstək ifadə edib. Partiyanın yaydığı xəbərdə deyilir ki, Divan referendumla əlaqədar sentyabrın 11-nə təyin olunan mitinqin hədəflərini, şüar və tələblərini düzgün hesab edir, bu mitinqdə öz tərəfdaşlarının iştirakını məqsədəuyğun hesab edir.

AXCP və Milli Şuradan isə Müsavatın 18 sentyabra təyin etdiyi mitinqlə bağlı heç bir reaksiya yoxdur. Müsavatın mitinq təyin etməsi Milli Şura tərəfindən görməməzlikdən gəlinir. Hətta belə bir davranışdan sonra da Müsavat Partiyasının Milli Şuraya, əsasən oradakı əsas söz sahibi olan AXCP-yə dəstək ifadə etməsi, əməkdaşlıq təklifində israr etməsi "səni sevəcəyəm sən sevməsən də" prinsipi görüntüsü yaradır.

Bu arada daha iki tanınmış partiyanın rəhbəri Müsavatın və Milli Şuranın keçirəcəyi mitinqlərlə bağlı mövqelərini "Yeni Müsavat"a açıqlayıb.

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə bildirib ki, AMİP-in bilavasitə təşkilatçılığında iştirak etmədiyi kütləvi tədbirlərdə partiya üzvləri bir qayda olaraq iştirak etmirlər. Yalnız bəzi hallarda istisnalar olur:** "Eyni zamanda onu deyə bilərəm ki, həmin mitinqlərdə partiya üzvlərinin iştirakı ilə bağlı partiya tərəfindən qadağa qoyulmayıb və maraqlananlar iştirak etməkdə sərbəstdirlər. Ümumilikdə isə mitinqlərdə iştirak səviyyəsinin elə də yüksək olmayacağı qənaətindəyəm".

**VİP sədri Əli Əliyev isə bildirib ki, mitinq düzgün qərardır:** "Referenduma ictimai diqqətin yönəldilməsi üçün qanunun nəzərdə tutduğu bütün vasitələrdən istifadə olunmalıdır. Təəssüf ki, cəmiyyət əsasən öz siyasi taleyinə biganədir. Bu səbəbdən tədbirlərin çoxsaylı olacağına inamım yüksək deyil. VİP-ə gəldikdə isə onu deyə bilərəm ki, rəsmi qaydada partiyamıza müraciət edilməyib. Ona görə də partiya olaraq mütəşəkkil iştirakımız mümkün deyil. Yeri gəlmişkən, bu taktikanı təşkilatçıların yanlışı sayıram. Təşəbbüs müəllifləri eqoistlik deyil, daha açıq mövqe qoymalı idilər, müxtəlif qurumlara ayrı müraciətlər olmalı idi. Bununla belə, məsələnin ictimai çəkisini nəzərə alaraq, üzv və tərəfdarlarımızın həmin mitinqlərə qatılımına əngəl yaratmayacağıq. Hesab edirik ki, mitinqlərin gur keçməsi maraqlarımıza uyğundur".

Planlaşdırılan mitinqlərə isə hakimiyyətin razılıq verməyəcəyi barədə xəbərlər yayılmaqdadır. Bildirilir ki, öncə Milli Şuranın 11 sentyabr mitinqinə icazə verilməyə bilər. Bəhanə kimi, Bakıda 42-ci Ümumdünya Şahmat Olimpiadasının keçirilməsi göstərilir. YAP-çı deputat Siyavuş Novruzov Şahmat Olimpiadası keçirildiyi və beynəlxalq diqqətin Bakıda olduğu tarixdə müxalifətin mitinq keçirməsini "dövlətə qarşı düşmənçilik" adlandırıb. Eyni zamanda deyib ki, nə Milli Şura, nə Müsavat Partiyası referendumla bağlı təbliğat-təşviqat kampaniyasında iştirak edə bilməzlər. Qanunun tələbinə görə, təbliğat-təşviqat kampaniyasını Mərkəzi Seçki Komissiyasının qeydə aldığı təşviqat qrupları keçirə bilərlər. Milli Şura və Müsavat Partiyası isə təşviqat qrupu deyillər.

YAP-çı deputatın bu fikirləri hakimiyyətin sözügedən mitinqlərə razılıq verməyəcəyi ehtimalının yüksək olduğunu deməyə əsas verir.

❑ **E.SEYİDAĞA**

# Natiq Cəfərli girov müqabilində də azadlığa buraxılmadı

## Vəkil qərardan apelyasiya şikayəti veriləcəyini deyir

**Nəsimi Rayon Məhkəməsi REAL Hərəkatının icra katibi Natiq Cəfərlinin girov müqabilində azadlığa buraxılması barədə verdiyi ərizəni təmin etməyib. Vəkil Cavad Cavadlının "Amerikanın səsi"nə verdiyi məlumata görə, girov olaraq məhkəmə ərizəsində Natiq Cəfərlinin həyat yoldaşına məxsus mənzilin girov qoyulması göstərilmişdi. Vəkil bildirib ki, Natiq Cəfərlinin özü də məhkəmədə iştirak edib.**



Natiq Cəfərli

O, prosesdə məhkəməyə verilən ərizəni müdafiə edərək həbsinin absurd olduğunu, hüquqi əsasları olmadığını və heç bir yerə qaçmayacağını bildirib. Vəkilin dediyinə görə, bütün bunlara baxmayaraq, hakim ərizəni təmin etməyib. Natiq Cəfərlinin həbs-qətimkan tədbiri dəyişilməyib. "Biz bu qərardan apelyasiya şikayəti verəcəyik" deyə, vəkil qeyd edib.

İbtidai istintaqa gəldikdə isə vəkil heç bir istintaq hərəkətləri aparılmadığını da xatırladıb.

Natiq Cəfərli avqustun 12-də saxlanılıb. Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barəsində 4 ay həbs- qətimkan tədbiri seçilib. Baş Prokurorluğun mətbuat xidmətinin məlumatına görə, Natiq Cəfərli Cinayət Məcəlləsinin 192.1 (Qanunsuz sahibkarlıq) və 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui?istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham olunur.

O, ittihamları qəbul etmir və REAL N.Cəfərlinin həbsini siyasi sifariş hesab edir. Beynəlxalq təşkilatlar hökuməti Cəfərlini həbsdən azad etməyə çağırıb.

# Xaricdən gələn investisiya və bürokrat icra başçıları...



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Əslində neft gəlirlərinin azalması qeyri-neft sektorunun inkişafı üçün bir fürsətdir. Bəlkə 5-6 il sonra "qara qızıl" yenə bahalaşacaq, yenə hökumət "pula pul deməyəcək". Təki olsun, son 2 ildə baş verənlər, yəni neftin qiymətinin ucuzlaşması təsdiq etdi ki, nöyütün birbaşa olmasa da, dolayısı ilə hər birimizə dəxli var. Axı dövlət büdcəsi azı 60 faiz neft gəlirləri hesabına formalaşırdı... İnşallah, yenə olsun, yenə bahalaşsın "qara qızıl"... Ancaq indi bir şans da yaranıb ki, ölkədə aqrar sahənin, turizmin inkişafına nail olunsun. Turizm bölgəsinə, aqrar ölkəyə çevrilməliyik ki, büdcəmiz dolsun, dövlətimiz çətinliklər içərisində, insanlarımız ac-yalavac, borc içərisində qalmasın.**

Müşahidələr onu deməyə əsas verir ki, həm kənd təsərrüfatının, həm də turizmin inkişafı üçün müəyyən addımlar atılıb və ortada ilkin nəticələr də var. Məsələn, bu il Azərbaycana xeyli sayda turist gəldi. Bakı varlı ərəblərlə dolmuşdu. Eyni zamanda Avropadan, Rusiyadan, digər MDB dövlətlərindən də müəyyən qədər turistlər gəlmişdi yay mövsümündə.

Habelə, əkinçiliyin, maldarlığın inkişafı yönündə də hökumət müxtəlif planlar həyata keçirir. Düzdür, bunu neft pullarının "torba-torba gəldiyi" vaxtlarda etmək daha səmərəli ola bilərdi. Amma yenə də gec deyil; aqrar sahə və turizm elədir ki, 2-3 il sonra əhəmiyyətli gəlir götürmək mümkündür.

Ölkə prezidenti İlham Əliyev bu məsələlərə şəxsən diqqət yetirir. Onun bu günlərdə rayonlardan birində səsləndirdiyi fikirlər, icra başçılarına verdiyi göstəriş diqqəti xüsusi cəlb edir. Prezident icra başçılarına xaricdən investisiyalar cəlb etmək üçün çalışmağı tapşırdı. Həmçinin, birbaşa xarici valyuta gətirən məhsulların yetişdirilməsini tövsiyə etdi.

Təbii, bütün dünyanı süni mallar başına götürdüyü, pambığın, təbii ipəyin qəhətə çıxdığı bir dönəmdə Azərbaycanın mahlıc, ipək istehsalı ilə məşğul olması, xarici kampaniyaların investisiya yatırılması üçün cəlb edilməsi zərurətdir. Başqa sözlə, bundan başqa yol görünmür. Tutaq ki, ildə 2 milyard dollarlıq pambıq, ipək istehsal edib satırıq, onlarla xarici investor bölgələrdə fabrik, zavod, turizm bazası yaradır, bir neçə milyard da buradan cəlb edilir... Təxminən neft qədər gəlir deməkdir bunlar! Bunlar tamamilə mümkündür; ölkəmizin bunun üçün geniş imkanları, potensialı, təbii şəraiti mövcuddur. Amma bütün bunların ərsəyə gəlməsi üçün ən vacib şərt bunları həyata keçirə bilən məmur ordusunun formalaşdırılmasıdır! Düzünü deyim, indiki icra başçılarının bu işləri görə biləcəyi, yaxud görmək istəyənlərə imkan verəcəyi inandırıcı deyil.

Bizim icra başçılarımız bürokratdır, oliqarxdır. Onlar işlədikləri rayonda biznes strukturlarını, əkin-biçin sahələrini özləri qamarlayır! Və ən əsası, müasir dövrün tələblərinə cavab vermirlər; əksəri nəinki e-maillə yazışa, heç smartfondan sms yaza bilmir!

Elementar bir nümunə göstərim. 2015-ci il avqustun sonlarında piarını apardığım bir avia-turizm şirkətinin təşkilatçılığı ilə Slovakiyadan iki iri sahibkar ölkəmizə gəldi. Məqsədləri bura investisiya yatırıb, turbaza yaratmaq, turist mübadiləsi həyata keçirmək idi. Slovakiyada çox iri bir sağlamlıq-istirahət mərkəzinin rəhbəridirlər onlar. Onları bir neçə rayonu gəzdirdik, Şəkidən çox xoşları gəldi. Dedilər Şəkini Slovakiyaya oxşadırıq, burada istirahət mərkəzi qura, yaxud da bir hazır yerə şəriklik edə, investisiya yatıra bilərik. Bunlar sonra gedib icra başçısı ilə görüşdülər, onlara başçı nə dedisə, çıxdılar getdilər. Gedəndə bizə son sözləri o oldu ki, sizin məmurlar bütün sahələri monopoliyada saxlayır, Şəkidə əsas istirahət mərkəzləri elə icra başçısının, bir də bir nazir müavinininindir (Abid Şərifovu nəzərdə tuturdu, "Şəki Park" onundur-red.), burada adi iş adamı iş görə bilməz. İndi o adamlar Türkiyə və Ukraynada iki sanatoriya açıblar, milyonlar yatırıblar həmin ölkələrə.

Sözümün canı odur ki, ölkəyə xarici valyuta gətirmək üçün öncə indiki bürokrat və oliqarx icra başçılarını yeniləmək lazımdır, ölkəmin, dövlətimin inkişafı üçün bu çox mühüm amildir...

İnkişaf üçün potensialdan da, imkanlardan da vacibi bacarıqlı, acgöz, işbaz olmayan kadrlardır. Heç olmasa inkişaf perspektivləri olan bölgələrə müasir düşüncəli, dünyanın gərdişindən başı çıxan, savadlı kadrları başçı qoymaq məncə, məsələnin həllinin azı 50 faizidir. Bizim ən böyük problemimiz özünü deyil, dövlətini, xalqını düşünən məmurların azlıq təşkil etməsidir. Ölkəni maliyyə çətinliyindən bacarıqlı və çirkaba bulaşmamış kadrlarla xilas etmək mümkündür...

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016



# "İntihar körpüsü"ndən keçmiş Kəlbəcər köçkünü ədalət istəyir

## Yusif Əmirov: "Bu adamlar cəzalarını bu dünyada almalıdırlar"

**Bir neçə gün əvvəl Kəlbəcər köçkünü Yusif Abbas oğlu Əmirov Bakıda Azərbaycan Ali Məhkəməsinin qarşısında aclıq aksiyası keçirməyə cəhd edib. Y.Əmirov ona bəraət verilməsini tələb edir. Bunun üçün o, Ali Məhkəmənin rəhbərliyi ilə görüşmək istəyib. Onun istəyi baş tutmadığından Ali Məhkəmənin binası qarşısında aclıq aksiyası keçirməyə cəhd edib. Ərazidə olan polis əməkdaşları aksiyanın qarşısını alıb. Y.Əmirov Xətai Rayon Polis İdarəsinin 37-ci polis bölməsinə aparılıb. "Yeni Müsavat"a müraciət edən Y.Əmirov deyib ki, bölmədə 3 saat saxlanılıb.**

"Bölmədə polislərə dedim ki, 14 il müddətinə heç bir əsas olmadan, günahsızlığımı hər kəs bildiyi halda azadlıqdan məhrum edilmişəm, 10 illik mücadilələmdən sonra məni azad ediblər, amma bəraət verməyiblər. Mən bəraət istəyirəm. İşimə ədalətlə baxılmasını istəyirəm. Onlar da araşdırdılar, gördülər ki, haqlıyam, məni buraxdılar" deyə, Y.Əmirov bildirib.

Qeyd edək ki, Y.Əmirov ötən il yanvarın 12-də "Koroğlu" stansiyasının yaxınlığında yerləşən və "intihar körpüsü" kimi ad çıxarmış yol qovşağının konstruksiyalarının üzərinə çıxaraq eyni tələblə çıxış etmişdi. Həmin vaxt FHN əməkdaşları ona intihar etməyə imkan verməmişdilər. "Yeni Müsavat"ın 16 yanvar 2015-ci il tarixli sayında Y.Əmirovun başına gələnlər haqda "Özünü öldürmək istəyən adamın tükürpədici hekayəsi" adlı yazı dərc edilib. 63 yaşlı Yusif Əmirov demişdi ki, körpüyə çıxmazdan əvvəl çox qapılar döyüb, lakin heç kim onu dinləməyib.

**Növbəti müraciətində Y.Əmirov haqqını bərpa edə bilmədiyindən Ali Məhkəmənin qarşısında aclıq aksiyasına qərar verdiyini söylədi:** "Etmədiyim cinayətə görə 10 illik həbs yatmışam. Naxçıvan məhkəməsindən barəmdəki hökmü bu gün də mənə vermirlər ki, şikayət edim, mənə əzablar, iztirablar yaşadanların cəzalandırılmasına nail olum. Ora çıxmazdan əvvəl uşaqlarımın gələcəyini tərəzinin bir gözünə, çəkdiyim ağrıları, əzabları, özümün, həyat yoldaşımın başına gətirilən müsibətləri o biri gözünə qoymuşam. O adamlar ki, mənim həyatımı sındırıblar, uşaqlarımı 10 il atasız qoyublar, mən o adamları son nəfəsimə qədər bağışlayan, bu işdən keçən deyiləm. Mən ailəmin namusunu müdafiə etmişəm və Şərurun polis rəisi olmuş Salman Vəliyev tərəfindən şərlənərək qanunsuz həbs olunmuşam. Naxçıvan prokurorluğunun müstəntiqi Ədalət Səfərov şərləndiyimi bilə-bilə qondarma iş aparıb. Naxçıvan prokuroru Fikrət Qəribov mənim işgəncələrə məruz qalmağıma göz yumub, qanunsuz həbsimə şərait yaradıb. Hakim Elman Yəhyayev günahsız olduğumu bilə-bilə mənə 14 illik cəza oxuyub. Bu adamlar cəzalarını bu dünyada almalıdırlar".

**Y.Əmirovun tək istəyi həyatını puç edən, ona və ailəsinə, uşaqlarına acı yaşadanların Azərbaycan dövlətinin qanunu qarşısında cavab verməlidir:** "Ayaqlar altında tapdalanan hüquqlarımız bərpa olunsun və o adamlar qanun qarşısında cavab versinlər".

❑ **E.MƏMMƏDƏLİYEV**



# Əmlak Komitəsi "MTN çetesi"nin mal-mülkünü siyahılaşdırıb qurtara bilmir

## Eldar Mahmudovun milyardlarla dəyəri olan mal-mülkü aşkarlanıb; onun şirkəti təkcə İspaniya büdcəsinə 2 milyard vergi ödəyibmiş!

**Baş Prokurorluq ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarov və digərlərinin barəsində olan cinayət işinin materiallarının məhkəməyə göndərilməsi ilə bağlı məlumat yayıb.**

Məlum olub ki, MTN-in 4 əməkdaşının 33 milyon 466 min manat dəyərində əmlak və pul vəsaitlərinin, o cümlədən 8 milyon 967 min manat dəyərində ticarət və xidmət sahələri, istilikxanalar, balıqçılıq təsərrüfatları və sair əmlak kompleksi, torpaq sahələri, 24 milyon 445 min manat dəyərində fərdi yaşayış evləri, mənzillər, nəqliyyat vasitələri və 37 min manat dəyərində zərgərlik məmulatlarının üzərinə həbslər qoyulub.

Əmək haqqı 2 min manatı aşmayan Akif Çovdarov və onun tabeliyindəki idarə rəislərinin milyonlarla dəyəri olan bu qədər mal-mülkü necə almalarını araşdırmaq istintaqçıların, Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin işidir.

"MTN çetesi" fəaliyyətdə olduğu illərdə xeyli sahibkar, korrupsioner vəzifə sahibi onların əllərində əsir-yesir olub. Başlarına torba keçirilib aparılan bu adamlar həmin torbaları qızıl-brilyant, pulla doldurmaqla, mal-mülklərini "öz xoşları" ilə "MTN çetesi"nin üzvlərinə bağışlamaqla canlarını qurtara biliblər. Mal-mülklərindən, pul-paralarından keçməyənlər isə uzunmüddətli həbsə və hətta qəbirə göndəriliblər.

Ötən ilin oktyabrında MTN-də baş tutan qəfil əməliyyatdan sonra isə qurumda mənzillənmiş çetenin fəaliyyəti dayandırılıb. Başladılmış əməliyyat-istintaq tədbirləri nəticəsində 5-i general olmaqla, ümumilikdə 21 MTN zabiti həbsə alınıb. Ötən ilin oktyabrından həbsdə olan "MTN çetesi"nin üzvlərinin mal-mülklərinin siyahılaşdırılması hələ də davam edir. Redaksiyamıza daxil olan məlumata görə, siyahılaşdırma prosesinə ən müxtəlif dövlət qurumları, Əmlak Komitəsi də cəlb edilib. Komitədəki mənbələrdən aldığımız məlumata görə, "MTN çetesi"nə daxil olan generalların, onların tabeliyində olan şəxslərin mal-mülklərini 10 aydır ki, siyahılaşdırıb yekunlaşdıra bilmirlər. MTN-də kök salmış çete üzvləri illərlə o qədər mal-mülk yağmalayıb yaxın ətraflarının adına rəsmiləşdirib ki, indi bunları üzə çıxarmaq çətinlik törədir!

Qaynağımız deyib ki, hətta təəccüblənməyə meylli olmayanlar da bu siyahılardakı adların qarşısındakı əmlakların sayını görüb heyrətə gələcəklər. Evlər, villalar, restoranlar, mağazalar, dükanlar, tikinti materialları satılan mərkəzlər, Azərbaycanın ən müxtəlif rayonlarında yerləşən bağ evləri, dənizkənarı imarətlər, saysız-hesabsız torpaq sahələri və s. əmlaklar "MTN çetesi" üzvlərinin həm də iştahlarının sərhədsizliyinə dəlalət edir.



Çete üzvlərinin böyük qanunsuzluqlar hesabına sahibləndikləri varidat hələ tam siyahılaşdırılmayıb, proses davam edir. Bu gün Eldar Mahmudovun əmlaklarının bir hissəsi haqda məlumatlar var. Bir müddət əvvəl meydan.tv onun oğlu Anar Mahmudovun Azərbaycanda, Türkiyədə, İspaniyada, Lüksemburqda olan şirkətləri haqda məlumat yaymışdı. Bu şirkətlərin yaranması Anar Mahmudovun atasının nazir təyin olunduğu vaxtdan sonraya təsadüf edir. Anar Bakıda "Caspian Crystal" Holdinqinin İdarə Heyətinin sədridir. Şirkətə "Beluga", "Salvador Dali", "Lord", "VİP" və "Velluto" kimi dəbdəbəli restoranlar şəbəkəsi daxildir. Şirkət ərzaq bazarına da daxil olub. Onlar 2007-ci ildən başlayaraq "Gastronomy-1", "Gastronomy-2" və "Gastronomy-3" mağazalarını açıblar. Eyni zamanda şirkət Azərbaycanda dünyanın hər yerindən gətirilmiş şərablar və alkoqollu içkilər təklif edən ilk butikin yaradıcısıdır. "Wine City" adlı 18 min şüşənin saxlanıldığı şərab anbarı da şirkətə daxildir. Şirkət şərab butikinin layihəsi və dizaynını fransızlarla birgə hazırlayıb. Bu şərablar elit müəssisələrə təqdim edilib və VİP müştərilər üçün nəzərdə tutulub. Şirkət "müştəri tələbatının artmasını" nəzərə alaraq 2012-ci ildə "Wine City-2" mağazasını açdığını bildirir. Holdinqə "Range Rover", "Jaguar", "Maseratı", "Ducati" kimi avtomobilləri Azərbaycana gətirən "Crystal Motors" da daxildir. Bundan başqa, Anar Mahmudov Azərbaycanda "Diqlas-1" MMC-nin təsisçisi, həm də qanuni nümayəndəsidir, "Kristal İnşaat" MMC-nin isə təsisçisidir. "Kristal İnşaat" 2008-ci ildə, "Diqlas-1" MMC isə 2010-cu ildə yaradılıb. Eldar Mahmudov nazir işlədiyi dönəmdə - 3 avqust 2012-ci ildə o, "Royals" Turizm İnşaat Sənaye Ticarət Anonim Şirkətinin İdarə Heyətinin üzvü olub. Türkiyə bazalarında şirkətin 100.000 TL-lik sərmayəsi olduğu göstərilir. Şirkət Türkiyədə və xarici ölkələrdə turistlərin gəzintisini və turları təşkil edib. Şirkətin digər sərmayədarı və nümayəndəsi Ağamikayıl İsmayılovdur. Anar Mahmudov isə Türkiyədə "Deha Gömlek Üretim Sanayi ve Ticaret Limited" şirkətinin şəriklərindən biridir. Oğul Mahmudov həmçinin "Sınalco Gayrimenkul ve Danışmanlık Hizmetleri Anonim" şirkətinin İdarə Heyətinin sədridir. Bundan başqa, Mahmudovların İspaniyada 4 şirkəti var. "22 Vaquer De Bendinat S.L." və "Son Sana Portals S.L." adlı şirkətlər tikinti, inşaatla məşğul olur. "22 Vaquer De Bendinat S.L." şirkətinin kapitalı 4 milyon 403 min 085 avrodur. Şirkət 31 mart 2015-ci ildə yaradılıb. "Son Sana Portals S.L." şirkəti 3 min 100 avro kapitala sahibdir. İspaniyada digər şirkəti "Macent Invest Group SL" şirkətidir ki, kapitalı 19 milyon 563 min 600 avrodur. Dördüncü şirkəti olan "Majorca Capas Group İnvestment SL" isə 11 milyon 859 min 111 avro kapitalı var. "Majorca" tikinti, alqı-satqı, daşınmaz əmlak sahəsində işləyir. Şirkət 2006-cı ilin 15 mayında yaradılıb. Şirkətin ödədiyi vergi 2 milyarddan bir az azdır. Oğul Mahmudovun Lüksemburqda da şirkətləri var. Onun direktoru olduğu "Utılıcom" və "Konoco.M" şirkətləri 2015-ci il ildə yaradılıb. Sənədlərdə bildirilir ki, Anar Mahmudov gəlirləri haqqında deklarasiya təqdim etməyib. Eldar Mahmudov 2004-cü ildən nazir vəzifəsinə təyin ediləndə bunların heç biri olmayıb...

Əgər bu şirkətlərin bütün əmlakları nağd pula konvertasiya edilsə, on milyardlarla vəsait əldə etmək olar. Bir daha qeyd edirik ki, bu hələ Eldar Mahmudovun 11 illik nazirliyi dövründə əldə etdiyi sərvətlərin tam siyahısı deyil. Onun tabeçiliyində çalışıb çetesinə daxil olanlara da dəyəri on milyonlarla ölçülən mal-mülkə sahiblənmələri üçün şərait yaradılıb. Uduzan tərəf Azərbaycan dövləti, sahibkarlığı, xalqı olub.

❑ **E.HÜSYNOV**

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, həbsdə olan general-mayor Akif Çovdarov "Bakı Metropoliteni"nin sabiq sədri Tağı Əhmədovdan 3 milyon manat alıb. A.Çovdarov Tağı Əhmədova onun üçün 1 miyon manatlıq "hədiyyə" alması sifarişini yollayıb. T.Əhmədov isə əzazil generalın sifarişini cavabsız buraxıb.**

# General Çovdarov 3 milyonu Tağı Əhmədovdan... döyə-döyə alıb - şok təfərrüatı

## MTN generalının "1 milyon ver" sifarişini rədd edən sabiq rəisi ağır cəzalandırıblar; müstəntiqin "bu qədər pul haradandır" sualı qarşısında isə elə bir yalan deyib ki...

MTN-də məlum "təmizləmələr" başlayandan sonra istintaqa ifadə verən məmurlar sırasında Tağı Əhmədov da olub. T.Əhmədov bu ilin mayında istintaqda ifadə verib və Akif Çovdarovla üzləşdirilib. Ondan əvvəl isə aprelin 22-də A.Çovdarov Səbayel rayonunun keçmiş icra hakimiyyəti başçısı Mübariz Məmmədovun qardaşı, Binəqədi bələdiyyəsinin keçmiş sədri, habelə Səbayel Rayon İcra Hakimiyyətinin hüquq şöbəsinin indiki rəhbəri Hafiz Aberkatovla üzləşdirilib. Həmin şəxslərin adı Çovdarov və MTN-dəki mütəşəkkil cinayətkar qruplaşmanın işində zərərçəkən kimi keçir. Çünki Çovdarov onlardan hədə-qorxu və təhdid yolu ilə iri məbləğlərdə pul qoparıb.

İş üzrə ən maraqlı epizod isə Tağı Əhmədovla əlaqəlidir. T.Əhmədov istintaqçılara deyib ki, A.Çovdarovun təhdid və təzyiqləri qarşısında ona 3 milyon manat verməyə məcbur olub. A.Çovdarov T.Əhmədovu şantaj edib və həbslə hədələyib. "Qafqazinfo" hüquq-mühafizə orqanlarındakı mənbələrinə istinadən T.Əhmədovun başına Akif Çovdarov tərəfindən gətirilən müsibətin təfərrüatlarını yazıb.

Belə ki, MTN-ə 10 ədəd "Range Rover" markalı avtomobil lazım olub. T.Əhmədov təxminən 1 milyon dollara başa gələcək bu "xərc"dən imtina edib. Bu da qarşı tərəfi narazı salıb. Bundan sonra T.Əhmədov və ətrafı barədə araşdırmalar başlanılıb. T.Əhmədovun özünün, metroda işləyən qardaşı oğlu Şövqi Tağıyevin və digər qohumu Elşən Tağıyevin (Tağı Əhmədovun qardaşı oğlanları) istifadəsində olan telefon nömrələri qanunsuz olaraq dinlənilib. Bu işdə A.Çovdarovun tapşırıqlarını MTN-in Monitorinq Xidmətinin sabiq rəisi, general-mayor Teymur Quliyev, həmin xidmətin əməkdaşları Anar Şirəliyev və Fərhad Atayev yerinə yetirib. Dinləmələr zamanı lazımi məlumatlar əldə edildikdən sonra idarə rəisi Rəsul Rəsulov T.Əhmədovla görüşüb. Ona rəhbərliyin mesajını çatdırıb. R.Rəsulov metropoliten haqda MTN-ə daxil olan şikayətlər əsasında onu həbs edəcəkləri ilə hədələyib. Bunların baş verməməsi üçün isə T.Əhmədovun 3 milyon manat verməsini istəyib. Sabiq metropoliten rəisi bu tələbi də rədd edib. Bundan sonra T.Əhmədovun qohumları olan Elşən və Şövqi



Tağı Əhmədov

Akif Çovdarovun göstərişi ilə saxlanılıb. Onlara MTN-də fiziki təzyiq olunub, döyərək işgəncələr verilib. Onlardan T.Əhmədovun əleyhinə ifadələr almağa çalışıblar. Elşən Tağıyev MTN-dən ağır kəllə-beyin travması diaqnozu ilə Mərkəzi Klinikaya yerləşdirilib. Nəhayət, T.Əhmədov məcburən 3 milyon manatı verməyə razılaşıb. Onun oğlu Ruslan və qardaşı oğlu Əli 1,2 milyon dollar, 1,5 milyon avro və 300 min manat pulu qara idman çantasında 2014-cü ilin aprel ayında Bakıda A.Çovdarova məxsus mənzillərin birində şəxsən onun özünə veriblər.

T.Əhmədovun A.Çovdarova 3 milyon dollar ödəməsi haqda məlumatlar yeni deyil, sabiq rəis özü bir müddət əvvəl bu məlumatları şərh edərkən yalana çıxarmağa çalışmışdı. Bununla belə, T.Əhmədovla yenidən əlaqə saxlayıb konkret faktlara əsaslanan məlumatlara münasibətini öyrənməyə çalışdıq. Lakin T.Əhmədov telefonu açmadı.

Yayılmış son məlumatda həmçinin A.Çovdarova ödənmiş 3 milyon dolların mənbəyi haqda T.Əhmədova istintaq zamanı sual ünvanlandığı da bildirilir.

Müstəntiqin ondan "siz 3 milyon manatı necə əldə etmişdiniz ki, Akif Çovdarova bu məbləğdə pulu ödəyə bildiniz" sualına "40 illik əmək haqqımdı, yığıb saxlamışdım" deyə cavab verib.

Məlumat üçün deyək ki, Tağı Əhmədov ömrünün böyük hissəsini "yeraltı dünya"ya həsr edib. "Bakı Metropoliteni"ndə fəhlə kimi işə başlayan T.Əhmədov 1998-ci ildə qurumun rəisi təyin edilib. 2014-cü ilə qədər metropolitenin rəisi olub.

Bu gün metropolitendə ən aşağı əmək haqqı 220 manat, ən yuxarı əmək haqqı isə 1000 manata yaxındır. Tutaq ki, T.Əhmədov metropolitendə 16 il deyil, elə 40 il rəis işləyib və aylıq maaşı 1000 deyil, 2-cə min manat olub. Bu halda Tağı Əhmədovun qazandığı 1 milyon manatdan 40-ca min kəm olardı. Tağı Əhmədovun dediyi kimi, 40 il deyil, gərək 120 il, özü də rəis vəzifəsində çalışmalı idi ki, sonda həmin 3 milyon manatı üstünü düzəltməklə 1 günün içində Akif Çovdarova ödəsin. Yəni Tağı Əhmədovun 40 il işləyib 3 milyon dollar qazanmasının adi riyazi hesablama ilə həqiqət olmadığı ortaya çıxır.

❑ E.HÜSEYNOV

# İlhamə Quliyevanın mülklərini ələ keçirmək üçün müdhiş plan

## Vüqar Bəkirov: "Mehriban dedi ki, elə bir dərman tapım ki, İlhamə Quliyevanın huşu itsin, sənədlərə qol çəksin"

**Sentyabrın 6-da mərhum müğənni İlhamə Quliyevanın sabiq köməkçisi Mehriban Hüseynovanın cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə şahid qismində İlhamə Quliyevanın oğlu Orxan Nadirovun dostu Vüqar Bəkirov ifadə verib. Qeyd edək ki, Vüqar Bəkirov hazırda həbsdədir. O, dələduzluqda təqsirləndirilərək 4 il müddətinə azadlıqdan məhrum edilib.**

V.Bəkirov əvvəlcə İlhamə Quliyevanın oğlu Orxan Kərimovun borc məsələsi haqda danışıb. O deyib ki, O.Nadirov onun vasitəsi ilə başqa şəxslərdən pul alıb. Lakin geri qaytarmadığından pulu ondan tələb ediblər. V.Bəkirov pulunu ala bilmədiyindən İ.Quliyeva ilə görüşmək qərarına gəldiyini deyib.

O, İ.Quliyevaya zəng edərkən telefona Mehriban Hüseynova cavab verib: "Mehriban telefonu açdı. Nə lazımdırsa, ona deməyimi istədi. Mən də İlhamə xanımla görüşmək istəyirdim. Sonra Mehriban özü mənə zəng elədi. Dedi ki, İlhamə Quliyeva ona baş etibarnamə verib. Nə lazım olsa ona deyim. Sonra İlhamə Quliyeva ilə görüşməyimizə razılıq verdi. İlhamə xanımla görüşəndə ona Orxanın borcunun olmasını dedim".

**V.Bəkirov ifadəsində bildirib ki, İ.Quliyevaya oğlu barədə danışarkən mərhum müğənni əvvəlcə onun polisə məlumat verməsin istəyib:** "Birinci İlhamə xanım dedi ki, polisə şikayət et. Ancaq sonradan fikrini dəyişdi. Dedi ki, bu iş mətbuata çıxmasın. Pulu ödədi. Orxanın 10 min manat borcu var idi".

Şahid Mehriban Hüseynova ilə aralarında olan digər söhbətləri də danışıb. Məhkəmədə məlum olub ki, Vüqar Bəkirov əvvəlcə Orxan Nadirovun borc məsələsi ilə bağlı problemi Mehriban Hüseynovaya danışıb. Onun dediklərinə görə, Mehriban Hüseynova bundan istifadə edərək, İlhamə Quliyeva ilə onun arasını vurmaq istəyib.



Mehriban Hüseynova

**Lakin işdə maraqlı bir məqam da bu olub ki, Vüqar Bəkirov həm Orxandan pulunu almaq istəyib, həm də Mehribandan eşitdiklərini Orxana danışmağa başlayıb:** "Mən Mehribanla görüşəndə onun İlhamə Quliyevaya qarşı kinini gördüm. Mənə Orxanın İlhaməyə baxmadığını, ona hörmət etmədiyini deməyə başladı. Mehriban dedi ki, İlhamə Quliyeva müalicə alır. Vəziyyəti ağırdır. 4-5 görüşdən sonra mənə dedi ki, hər şeyi öz adına keçirəcək. Ona vəsiyyətnamə düzəltməyə kömək etməyimi istədi. Mənə Orxanla bağlı dediklərini ona danışırdım. Orxan da deyirdi ki, özümü elə göstərim ki, Mehriban məndən şübhələnməsin və hər şeyi danışsın. Orxan elə hər görüşdən sonra məni gözləyirdi. Səs yazılarını da ona verirdim. Həmin səs yazılarını da istintaqa təqdim etmişəm. Aramızda görüşlər olandan sonra məni İlhamə Quliyeva ilə görüşdürdü. Orxanla bağlı problemi ona danışdım. Orxanın İlhamənin mülklərini ələ keçirməsini istəmirdi. Mən də bunu Orxana çatdırırdım. Mehriban İlhamədən bezdiyini deyirdi. Biz Orxanla Mehribana saxta vəsiyyətnamə düzəltməyi planlaşdırdıq. Məqsəd bu idi ki, mən vəsiyyətnaməni ələ keçirim, Orxana verim. O da İlhamə Quliyevaya göstərsin və Mehribanın necə adam olduğunu sübut etsin. Mən əvvəlcə Orxana təklif elədim ki, Mehribanın bu işini polisə deyək. Ancaq Orxan dedi ki, bunu sübut edə bilməyəcəyik".

**Vüqar Bəkirov İlhamə Quliyevaya dərman verilməsindən də danışıb. O qeyd edib ki, dərman Mehribanın istəyi ilə İlhamə Quliyevaya verilib:** "Mehriban dedi ki, elə bir dərman tapım ki, İlhamə Quliyevanın huşu itsin. Notariusdan gələn olanda sənədlərə etiraz etmədən qol çəksin. Ancaq Orxanla biz Mehribana vitamin verdik. Həmin dərmandan mən də istifadə edirdim. C vitamini idi. Gündə 4 ədəd atırdı. Bu, onun sağlamlığına zərər vurmurdu. Əksinə, xeyir edirdi".

**V.Bəkirov Mehriban Hüseynovanın nüfuzlu şəxslərlə münasibətinin olduğu halda, niyə məhz vəsiyyətnaməni ondan istəməsini belə izah edib:** "Dedi ki, həmin nüfuzlu şəxslər MTN işçiləridir. Mənə dedi ki, bu işə görə onlara ağız aça bilməyəcək".

**Mehriban Hüseynovanın diz çökərək İlhamə Quliyevadan üzr istədiyi gün yaşananları da danışan V.Bəkiorv qeyd edib ki, həmin gün onun yazdığı səs yazıları dinlənilib.**

**Bundan sonra M.Hüseynova evə çağırılıb:** "Mehriban evə girəndə Kəmalə ona bir sillə vurdu. Mən ilk dəfə İlhamə xanımı görəndə beli bükülmüşdü, ayaqları çirkin içində idi. İlhamə xanım həmin gün onu bağışlamaq istəyirdi. O da ona yalvarmağa başladı. Onu heç kim vurmadı".

**Məhkəmə prosesində İlhamə Quliyevanın 10 il mətbuat katibi olmuş Faiq Ələkbərov da ifadə verib. O, Mehribanı videoya çəkməsinin İlhamə Quliyevanın istəyi ilə olduğunu bildirib:** "İlhamə xanım dedi ki, olanları videoya çəkim. Hamı görürdü. Gizli çəkmirdim. Sonra videonu İlhamə xanım özü istədi. Mətbuat konfransında da jurnalistlərə verib".

**Məhkəmə prosesi sentyabrın 20-də davam etdiriləcək.**

Qeyd edək ki, mərhum müğənni İ.Quliyevanın sabiq köməkçisi M.Hüseynova 2015-ci il oktyabr ayının 21-də həbs edilib. Onun barəsində Cinayət Məcəlləsinin 29.180.3.2-ci (soyğunçuluğa cəhd, zərərçəkmiş şəxsə külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb. 2016-cı il fevral ayının 13-də Səbayel Rayon Məhkəməsində M.Hüseynova barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti üç ay uzadılıb.

Xatırladaq ki, İ.Quliyeva 2016-cı il fevral ayının 25-də səhər saatlarında, 73 yaşında dünyasını dəyişib.

❑ İlkin MURADOV

**Bankların qarşısında dollar almaq üçün uzun növbələr yaranıb. Bir neçə gündür ki, dərman depolarından idxal mənşəli preparatların satışı da dayandırılıb. Rəsmən elan edilməsə də, yerli istehsallı az saylı dərmanlardan başqa şəbəkəyə heç nə buraxılmır.**

# Deputatdan hökumətə təcili tədbirlər görmək çağırışı

## Vahid Əhmədov: "Ağıllı, normal hökumət olsaydı..."



Devalvasiya gözləntisi, daha sadə ifadə etsək, manatın aqibətinin qeyri-müəyyənliyi depolardan buraxılan məhsulların dayandırılmasına səbəb olub. Eyni vəziyyət ərzaq məhsullarının topdansatış mərkəzlərində də hökm sürür. Ölkədə manatın ucuzlaşmaqda davam etməsi, ərzaq və digər əmtəə mallarında hər gün müşahidə olunan bahalaşma sosial narazılıq yaratmaqdadır.

Bir sıra ekspertlər hesab edir ki, hökumət yaranmış duruma təcili müdaxilə etməsə, hansısa ciddi addımlar atılmasa, sosial gərginlik daha da arta və ölkə heç də yaxşı olmayan situasiya ilə üz-üzə qala bilər.

Bəs hökumət təcili hansı addımları atmalıdır?

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, baş nazirin sabiq birinci müavini Vahid Əhmədov öncə bildirdi ki, dünya bazarında neftin qiyməti kəskin aşağı düşdüyü və idxal-ixrac əməliyyatlarında mənfi saldo yarandığı üçün Azərbaycanda manatın ucuzlaşması, əmtəə məhsullarında bahalaşmanın getməsi labüd idi. Manat iki dəfə devalvasiya oldu, lakin yenə də manat gəlib öz bazar dəyərini almayıb:** "Mən əvvəldən yumşaq devalvasiyanın tərəfdarı olmuşam. Manatı buraxmaq lazım idi ki, manat yava-yavaş gəlib öz bazar dəyərini alsın. Necə ki, Rusiyada, Qazaxıstanda bunu etdilər. Azərbaycanda isə buna gedilmədi. Mərkəzi Bank və digər hökumət qurumları kəskin devalvasiyaya getdilər. İndi gedən yumşaq devalvasiya isə müəyyən müddət davam edəcək. O vaxta qədər davam edəcək ki, manat gəlib bazarda öz həqiqi dəyərini alacaq. Bu da lazımdır. Çünki hər il manatı saxlamaq üçün Mərkəzi Bank öz ehtiyatlarından maliyyə bazarına xeyli vəsait buraxırdı. Bu vəsaitlərlə manatı müəyyən qədər qoruyub saxlayırdılar. Buna görə təxminən keçən müddət ərzində 12 milyard manata yaxın Mərkəzi Bankın ehtiyatından vəsait azalıb. Amma ağıllı, normal hökumət olsaydı, həmin vəsaitləri ayırardı real sektora, manatı da buraxardı tələb və təklif arasında formalaşan rəqabətə. Buna gedilmədiyi üçün indiki proses davam edəcək.

Mərkəzi Bank hökumətlə bir yerdə əhaliyə məlumat verməlidir ki, belə bir proses gedir. Çox təəssüflər olsun ki, Mərkəzi Bankın rəhbərliyi heç bir izahat vermir və hökumət də susur. Bu da əhali arasında təşvişi bir az da artırır. Hökumət mütləq reaksiya verməlidir".

**Vahid Əhmədov qeyd etdi ki, Azərbaycanda yaranmış bu vəziyyətə görə ölkəyə və əhaliyə ziyan vurulmasının qarşısını almağın yolları var. İki ən vacib məsələ həllini tapmalıdır:** "Bahalaşmanın qarşısını inzibati yollarla almaq qeyri-mümkündür. İlk növbədə iki məsələni həll etmək lazımdır. Birincisi, bank sisteminin sağlamlaşdırılması çox vacibdir. Bu gün bank sistemində çox ciddi problemlər var. Buna hökumət, dövlət qarışmalıdır. İkinci vacib məsələ qeyri-neft sektorunun inkişafına nail olmaqdır. Düzdür, bu uzun yoldur. 2004-cü ildə cənab prezident Regionların iqtisadi inkişafı proqramı çərçivəsində hökumətin qarşısında qoyduğu məsələlərdən biri qeyri-neft sektorunun inkişafı idi. 11 ildən artıq keçib, ancaq təəssüf ki, qeyr-neft sektorunda ciddi inkişafa nail ola bilməmişik. Amma indi də gec deyil. Konkret proqramlar hazırlanmalı və həyata keçirilməlidir. Qeyri-neft sektorunda ciddi inkişaf olmadan büdcəyə istənilən səviyyədə vəsait daxil olmasına nail olmaq çətindir. Kənd təsərrüfatı sahəsinin inkişafı üçün cənab prezident və Prezident Administrasiyası addımlar atır, müəyyən qədər inkişaf gözlənilir. Amma kənd təsərrüfatı ilə yanaşı sənayedə də inkişafa nail olunmalıdır. Azərbaycanın öz ehtiyaclarını ödəyə bilən məhsulları xaricdən gətirməyə ehtiyac yoxdur. İdxalın tərkibinə baxmaq lazımdır ki, hansı məhsulu Azərbaycanda istehsal etmək mümkündürsə, təcili surətdə onun istehsalını bərpa eləmək lazımdır".

**Deputat onu da vurğuladı ki, Azərbaycanda struktur islahatlarına da çox böyük ehtiyac var:** "Struktur islahatları bütün idarəetmə sistemini əhatə eləməlidir. Düzdür, 26 sentyabrda referendumdan sonra ölkədə vitse-prezidentlik institutu idarəçilikdə tətbiq olunacaq. Bu, problemlərin həllinə müəyyən qədər müsbət təsir göstərə bilər. Nazirlər Kabinetinin bir müddət sonra buraxılmasına, ümumiyyətlə, strukturların dəyişməsinə ehtiyac var. Siyasi islahatlar da aparılmalıdır ki, problemlər öz həllini tapsın. Yəqin ki, referendumdan sonra dövlət başçısı siyasi islahatlara da start verər".

❑ **Etibar SEYİDAĞA**

# Müxalifət Cinayət Məcəlləsinə salınacaq "ömürlük" maddədən narahatdırmı...

**Prezident İlham Əliyevin təqdimatı ilə Cinayət Məcəlləsinə 278.2-ci maddənin əlavə edilməsi ilə bağlı təklif verilib. Artıq layihə Milli Məclisə təqdim olunub və növbəti iclasda müzakirəyə çıxarılacaq.**



**İqbal Ağazadə:** "Bu maddəni təqdir edirəm"



**Tural Abbaslı:** "Bizi təşvişə salmaya bilməz"



**Həsrət Rüstəmov:** "Ciddi şəkildə narahatıq"

Yeni maddəyə əsasən, Azərbaycan Respublikasının konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına, yaxud hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsi 15 ildən 20 ilədək müddətinə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Təklif olunan maddəyə ölkə müxalifətinin mövqeyi birmənalı deyil. Bir qisim Azərbaycan üçün dini radikalizm təhlükəsinin olduğunu düşünüb, yeni maddəyə müsbət yanaşır. Digər qisim bundan narahatdır. İkincilər gələcəkdə bu maddədən sui-istifadə hallarının olacağını, müxalifətçilərin bu maddə ilə ittiham oluna biləcəyini ehtimal edirlər.

**Ümid Partiyasının sədri İqbal Ağazadə CM-ə əlavə olunacaq bu maddədən heç bir narahatlıq hissi keçirmədiklərini söylədi:** "Əksinə, bu maddəni təqdir edirəm. Heç bir halda hakimiyyəti zorakı yolla ələ keçirmək, dövlət quruluşunu dəyişmək, dövlətin konstitusion quruluşunu dini məcraya yönəltmək, əraziləri parçalamaq olmaz. Bu baxımdan, Cinayət Məcəlləsinə əlavə olunacaq maddəni təqdir edirəm. Sui-istifadə halları hər zaman olacaq. Konstitusiyamızda insan haqları var, bəyəm yerinə yetirilir? Söhbət burada sui-istifadədən getmir, maddənin quruluşundan gedir. Bu hallar olacaq deyə, bir qanun qəbul olunmasınmı? Sadəcə, sui-istifadə hallarının qarşısını almaq lazımdır, qanunun qəbulunun yox".

**AĞ Partiyanın sədri Tural Abbaslı yeni maddənin müxalifəti narahat etməli olduğunu qeyd etdi:** "Azərbaycan tolerant xalqdır. Bu günə qədər dini radikalizm istiqamətində ciddi bir qarşıdurma olmayıb. Buna cəhdlər edilib, amma arxasında siyasi çalarlar, yəni süni qarşıdurma yaratmaq məqsədləri dayanıb. Burada da dini camiyənin rolu olmayıb. İndi də belə ağır şərtlərlə Cinayət Məcəlləsinə maddə salınması düşünürəm ki, beynəlxalq aləmə bir mesajdır. Azad məhkəmələrin olmadığı bir ölkədə belə ağır maddələrin olması bizi təşvişə salmaya bilməz. Bu təhlükələr hər birimizi gözləyə bilər. Hazırda Azərbaycanda dinlə bağlı heç bir təhlükə görmürəm".

**ADP sədrinin müavini Həsrət Rüstəmov hesab edir ki, bu və ya digər formada Azərbaycanda qanunlar sərtləşdirilir:** "Biz də bundan ciddi şəkildə narahatıq. Bu hallar cinayətlərin azalmasına gətirib çıxarmır. Əksinə, cəzalar nə qədər sərtləşdirilirsə, ağır cinayətlərin sayı artır. Bizim partiya qeyri-qanuni yollarla hakimiyyətin dəyişdirilməsinin birmənalı əleyhinədir. Bunu dəfələrlə bəyan etmişik. Biz hakimiyyətin demokratik yolla, xalqın iştirakı ilə dəyişdirilməsinin tərəfdarıyıq. Bundan əlavə, güc yolu ilə olan dəyişiklikləri heç bir halda dəstəkləmirik. Siyasi təcrübəmizdə bu hal var. Əbülfəz Elçibəyə qarşı silahlı qiyamın müxalifətdə olmağımıza baxmayaraq, ilk əleyhinə çıxan biz olmuşuq. Bu cür maddələrin əlavə olunmasından ona görə narahatıq ki, bundan sui-istifadə edib müxalifət tərəfdarlarını həbsə alar, ağır cəzalara məhkum edərlər. Bu baxımdan, yeni maddənin əleyhinəyik".

❑ **Cavanşir ABBASLI**

# Nazir Nəcməddin Sadıkovun oğlunu müşavirlikdən çıxardı

**Vergilər Nazirliyində növbəti kadr dəyişikliyi baş verib. "Report" xəbər verir ki, vergilər naziri Fazil Məmmədov müşavirlərinin sayını 8-ə endirib.**



Nəcməddin Sadıkov

Məlumata görə, nazir müşaviri Məhəmməd Nəcməddin oğlu Sadıkovu vəzifəsindən azad edib. Bununla da vergilər nazirinin müşavirlərinin sayı 9-dan 8-ə enib. Hazırda vergilər nazirinin müşavirləri Ələkbər Məmmədov, Riyad Hüseynov, Habil Məmmədov, İlqar Əhmədov, İlham Əmirəliyev, Taryel Quliyev, Elçin Məmmədov və Rəşad Həbibovdur.

Məsələyə münasibət bildirən Vergilər Nazirliyindən isə "Məhəmməd Sadıkov artıq nazirliyin əməkdaşı deyil", - bildirilib.

Xatırladaq ki, Məhəmməd Sadıkov Azərbaycan Silahlı Qüvvələri Baş Qərargahının rəisi Nəcməddin Sadıkovun oğludur.

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016



# Tankın qabağındakı oğlanlar

Zamin HACI
zaminhaci@gmail.com

**Həyatımız öz tragikomik axarıyla davam etməkdədir. Şopenhauer azərbaycanlı olsaydı, bəlkə indiki günlərimizə baxıb "Dünya iradə kimi" əsərini ayrı cür yazardı, misal üçün, "Kim eşşəkdirsə, biz ona palanıq" şəklində. Ya da, "Ağa dedi, sür dərəyə" tipində. İradəyə nə verirlər? Heç nə. Ya da 10-15 il türmə.**

Başqa sitatlar da yerinə düşür, misal üçün, belənçik formada: "Kimin günahı yoxdursa, birinci gülü və şamı aparatın qabağına o aparsın". Siz unuda bilərsiniz, mənim yadımdadır. Eh... İndi deyir nökərinizəm... Bəlkə ritorika dəyişməlidir? Misal üçün, hakimə belə deyə bilərdi: "Sən o yanındakı katibin canı, vəsatəti qəbul elə". Ya da belə: "Sən o yanındakı qızın canı, telekanalizasiyamı qaytar". Daha məlum deyil efir nökərin nəyinə lazımdır. Çağdaş, postmodern nökərçilikdir yəni? Ola bilər. Odur ha, özünü Nobelə namizəd itələyən rektorun keçmiş universitetindən təzə qələmqaş rektor 110 "ölü can" tapmadımı? Multikultural tip imiş sən demə. Hələ bu yetim sayılırdı, gör o birilərdə neçə saxta ştat cədvəli var. Metro Tağı demişkən, 40 ildir yeyib-içmədən maaşı yığıb 3 milyon dollara çatdıran oğlanların ölkəsindəyik.

Baş Prokurorluq deyir ki, keçmiş MTN-in başda Çovdarov olmaqla, cəmi 4 əməkdaşının millətə atıb topladığı vəsait 34 milyon manat imiş. Millət deyəndə, 62 nəfərin soyulmasından söhbət gedir, adı dəftər-kitaba düşməyən nə qədərdir - şeytan bilir. Maliyyə naziri deyir ki, Beynəlxalq Bankın şefi 5 milyard manatı qapazlayıbdır. Qaçıb aradan çıxmış arvadının təkcanına 10 bank kartı olub, Avropa turnelərində, elə-belə gəzməklərdə arvadağanın cib xərci 18 milyon dollara çatıb. Bəh-bəh...

Əlbəttə, hər zaman bir suç keçisi tapılacaqdır, respublikamız isə iri addımlarla irəliləyəcəkdir. Bacarana baş qurban. Çalış ələ keçmə. Yedin dadındır, verdin adındır, qaldı yadındır. Gör nə müdrik kəlamlar var e! Ləzzət.

Birini də Əbülfəz Elçibəyin adından yazırlar. Bir dəfə bəy deyib ki, tankın qabağında dayanan oğlanlar pulun qabağında dayana bilmədilər. Harda deyib, haçan deyib, hansı oğlanları nəzərdə tutubdur - xəbərim yoxdur. Çox romantik, bir az da populist kəlamdır. Bəyi az-maz tanıyan adam kimi onun belə afyorizm söyləməsinə inanıram. Puldan başı çıxmırdı doğrudan da. Pulun qüdrətini anlamırdı, bir çox idealistlər kimi. *(Ya da özünü idealist tanıtdıranlar kimi - bunu da Elçibəyi sevməyənlər üçün balans olaraq bura cızaq).* Yoxsa ki, tankın qabağında dayanan oğlanları elə həmin tankı pulla alan oğlanlar yıxar. Hər ikisi eyni oğlan olsa necə? Pulun varsa, ver tanka, dur qabağında, kefin istəyən qədər. Lap parad qayır. Ya da hərdən təpə-təpə oyunu keçirt.

Elçibəy öz komandasını da yaxşı tanımayıb. Yoxsa tankın qabağında dayanan oğlanlar heç pul üzü gördülərmi ki? Demək olar hamısı elə o tankların altında, Qarabağda-filanda həlak oldular. Pulun qabağında dayana bilməyənlər əvvəldən tankın qabağına da çıxmamışdılar. Bax, o nökərlərin dini kitabdan uğurla çırpışdırdığı *(din həmişə bəlalərinin işinə yarayıb, yetimin işinə yarasa daha nə din oldu?)* məşhur sloqanındakı kimi, başqalarına "alnınıza döyüş yazılıb, haydı, igidlər" deyib həmişə qıraqda, kol dalında gizlənib pul yığırdılar.

Azca yer qalıb, onu da keyfiyyətli pritça ilə dolduraq. Deyir bir gün Bernard Şou qadınlar haqda ağzını açıb, gözünü yumur, yazır ki, onlar hamısı fahişədir. Kraliça bundan qəzəblənir, deyir tutun Şou müəllimi paza keçirdin. Zarafat edirəm, orda kraliçanın belə hüququ 800 il qabaqdan əlindən alınıb, dərəbəylik ölkədir. Uzun sözün qısası, kraliça Bernard bəyi çağırır saraya, deyir niyə belə təhqir yazmısan, bizim milli-mənəvi dəyərlərimiz, mentalitetimiz vardır, bax elə mən özüm də qadınam, mən fahişə deyiləm axı, mənə neçə funt-sterlinq verərdiniz?" Şou deyir: "On min funt-sterlinq". Kraliça qəzəblənir: "Niyə elə ucuz?" Şou: "Əlahəzrət, bax, görürsünüz, siz də artıq qiymət danışmağa başladınız".

---

**Tanınmış erməni jurnalisti, "3-cü qüvvə plus" qəzetinin baş redaktoru Vaqram Ağacanyan olduqca ilginc bir yazı ilə çıxış edib. Musavat.com Dağlıq Qarabağdakı gerçək vəziyyəti, oradakı erməni əhalisinin əhvalını özündə daşıyan bu ibrətamiz yazını Azərbaycan türkcəsinə tərcümə edərək, onu geniş ictimaiyyətə çatdırır. Bir daha qeyd edirik ki, bu yazını bir erməni jurnalisti yazıb!**

# Erməni jurnalist "DQR"də gördüklərindən yazdı: "Dağıdılmış iqtisadiyyat, ağır sosial şərait, kütləvi kasıblıq..."

## Vaqram Ağacanyan: "Rəhbərlik hətta "bayram" tədbirlərinə ayrılan büdcə pullarını belə "yeyib""

"Sentyabrın 2-də Dağlıq Qarabağ öz "müstəqilliyinin" 25 illiyini "bayram etdi". Bu yubiley tədbiri tanınmamış "respublika"da məyusluq atmosferində və əksər vətəndaşlar üçün qaranlıq ab-havada keçdi.

Həmin gün Xankəndinin küçələrini gəzərkən televiziyada Ermənistandan gələnlər və diaspora üçün göstərilən şadyanalıqdan fərqli olaraq,hər yanda sönüklük və yeknəsəkliyin hökm sürdüyünü müşahidə etmək olardı.







Tanınmamış respublika hakimiyyət tərəfindən bu cür lokal bayramların təşkili üzrə gördüyüm imitasion tədbirlər o qədər süni və primitiv xarakter daşıyıb ki, hətta hökumətə loyal münasibət bəsləyən Qarabağ ermənilərində belə rişxənd və gülüşə səbəb olub.

Adamda elə təəssürat yaranır ki, "bayram tədbiri" də "DQR" rəhbəri Bako Saakyanın qaranlıq sovet rezidensiyasına hər il yığışan 30-40 nəfərin iştirakı ilə keçib. Onlar Şimali Koreya ruhunda alovlu, lakin boş və mənasız çıxışlar ediblər, öz-özlərini medallarla mükafatlandırıblar, sonra isə qalan 99 faiz vətəndaşın nə düşündüyünü veclərinə almadan gediblər "vurmağa"...

Paradlar, hay-küylü qəbullar, əhali üçün güzəşt və imtiyazlar... bunların heç biri olmayıb... Hər şey əyalət geri qalmışlığı, cəhaləti və zövqsüzlüyü ruhunda keçirilib.

"DQR"in "paytaxtı"nın sakinləri bu cür sönük təşkilatçılığı Qarabağ rəhbərliyinin (işğalçı rejimin-red.) fantastik tamahkarlığı və acgözlüyü ilə bağlayırlar. Onların fikrincə, rəhbərlik hətta "bayram" tədbirlərinə ayrılan büdcə pullarını belə "yeyib".

Burada hakim olan rəyə əsasən "DQR" rəhbərliyinə xarici qüvvələrin köməyi ilə əvvəllər əl uzadıb salam verməyə belə layiq olmayan adamlar gətirilib. Məlum zamanlarda *(müharibə dövründə-red.)* kasıblıqdan acından ölən bu darvaza altından çıxan adamlar indi hərəkət edən və tərpənən hər şeyi qarət etməklə məşğuldur. Xankəndi sakinləri hətta "heç nəyi olmayanın hər şeyi olur" deyə, acı zarafat da edirlər.

"DQR"də keçirilən bayramlar bir qayda olaraq məzarlıqların ziyarət edilməsi, məktəblilərin Xankəndinin mərkəzindən idman qaçışları *(Qarabağ erməniləri bunu "prezidentin" at yarışları adlandırırlar)*, Ermənistandan gələn tanınmamış qrupların konsert çıxışları və "xruşşovka" binalarında yaşayan insanları qorxutmaqdan başqa bir şeyə yaramayan axşam atəşfəşanlığından ibarət olur. Bütün "müstəqillik" bayramı bax elə bundan ibarətdir. Necə deyərlər, köhnə kolxoz" dövrlərində olduğu kimi...

Dağlıq Qarabağ öz "müstəqilliyini" dağıdılmış iqtisadiyyatı, olduqca ağır sosial və mənəvi-psixoloji şəraiti, kütləvi kasıblıq və əhalinin öz yerlərindən əsl depopulyasiyanı xatırladan *(bir ərazinin əhali tərəfindən tamamilə tərk edilməsi-red.)* yüksək templə emiqrasiyası ilə qarşılayır. İnanmayanlar Rusiyada və başqa ölkələrdə siyahıya alınan Qarabağ ermənilərinin sayı ilə tanış ola bilərlər.

İndi ki, Qarabağ ermənilərinin həmişə şikayət etdiyi Bakı hakimiyyəti və ya sovet diktatı yoxdur. Necə deyərlər, hər yanda zəngin təbii sərvətlərə malik "müstəqilliyimiz"var...

Rusiya ekspertlərinin rəyinə əsasən, Dağlıq Qarabağda bir qızıl yüz milyon dollara bərabərdir. Milyardlardan bələ danışanlar var. Xoşbəxtlik isə yoxdur ki yoxdur- elə həmənki pauperizm (səfalət), hətta öz yazılmamış qanunlarını pozan yarıkriminal "avtoritetlərin" zorakılığı hökm sürür. "Görəsən, dünyada hakimiyyətin öz xalqına bu qədər nifrət etdiyi ikinci bir ölkə varmı?"deyə, Qarabağ erməniləri sual edirlər.

Bir çox Dağlıq Qarabağ ermənisinin fikrincə, bu ağlamalı vəziyyətin səbəbi qondarma "respublika"nın hakimiyyət orqanları tərəfindən vətəndaşların hüquqlarının kobud surətdə pozulması, mətbuat azadlığının məhv edilməsi, hakimiyyətin zorakılıq və özbaşınalıqda tam sərbəstliyi, hər şeyi basıb-yeyən korrupsiyadır. Siyasi müşahidəçilər Qarabağda hökm sürən hərbi-polis rejiminin ideoloji konturlarının Latın Amerikası xuntası və ya Orta Asiya xanlıqlarına söykəndiyini deyirlər.

***

**Musavat.com-un şərhi:** Vaqram Ağacanyan Dağlıq Qarabağda quldur rejimin cinayətlərini dünyaya çatdıran tək-tük erməni jurnalistlərindən biridir. Onun qondarma "DQR"in əslində dünyada hökm sürən mafioz strukturların, habelə iri dövlətlərin yardımı ilə bir qrup cinayətkarın əlində alətə çevrilən saxta quruluş olmasına dair onlarla məqaləsi var. Əlbəttə ki, bizim Ağacanyanı az qala ağ qanadlı mələk kimi təsvir etmək fikrimiz yoxdur. Erməni ermənidir... Ağacanyan heç bir yazısında Azərbaycandan ötrü darıxdığını dilə gətirmir...

**Lakin hər halda,yazılanlardan bir şey aydındır:** "DQR" adlanan qondarma respublika əslində ermənilərin özlərini kölə halına salınması üçün qurulub. Azərbaycanın tərkibində sözün əsl mənasında yağ-bal içində üzən Qarabağ erməniləri indi kasıblıq, səfalət və aclığın astanasındadır. Qarabağda Ermənistan ordusunun əsgərlərindən başqa əhali demək olar ki, qalmayıb. Sərkisyan "Qarabağ yenidən Azərbaycanın tərkibinə qayıtsa, burada bir dənə erməni qalmayacaq", - deyəndə, yəqin ki, elə ancaq hərbçiləri nəzərdə tutub. Çünki məhz Sərkisyan və onun quldurlarının sayəsində Qarabağda yerli erməni əhali yaşadıqları yeri kütləvi surətdə tərk edib.

Onların tək nicatı isə yenidən Azərbaycanın tərkibində yaşamasıdır. Yalnız belə olan halda ermənilər çoxdan arzuladıqları rifaha və xoşbəxtliyə qovuşa bilərlər.

❑ **Vaqif HÜSEYN**

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016

## SOCAR-ın dünyada artan nüfuzu rəqiblərini qorxuya salıb

**SOCAR-ın Yunanıstanın Qaz Nəqli Sisteminin Operatoru olan DESFA şirkətinin səhmlərinin alınması barədə razılaşma növbəti dəfə iki ölkə arasında narazılığa artıb. Buna səbəb isə Yunanıstan hökumətinin DESFA-nın özəlləşdirilməsi ilə bağlı keçirilən tender proseduruna özbaşına dəyişiklik etməsidir. "APA-Economics" xəbər verir ki, bunu Azərbaycanın Yunanıstandakı səfiri Rəhman Mustafayev bildirib.**




# Yunan hökumətinin Bakı ilə cığal "qaz oyunu" - arxasında kim var?

### Yunanıstan hökumətinin DESFA-nın özəlləşdirilməsi ilə bağlı keçirilən tender proseduruna özbaşına dəyişiklik etməsi Azərbaycan tərəfinin narazılığına səbəb olub; belə görünür ki, yunan hökumətinin "qarnının ağrısı" başqadır və bu oyunların arxasında Kreml hakimiyyəti dayana bilər, çünki...

Səfir qeyd edib ki, Yunanıstan hökumətinin artıq mənfəət əldə etmək niyyəti ikitərəfli işgüzar münasibətlərə təsir edə bilər.

Diplomat bildirib ki, energetika naziri Panos Skurletis tərəfindən təklif edilən dəyişikliklər SOCAR rəsmiləri ilə razılaşdırılmayıb: "Bu isə öncədən danışılmış şərtlərə ziddir və özəlləşdirmə prosesini çətinləşdirir. SOCAR bir çox ölkələrdə fəaliyyət göstərir, lakin bu cür halla ilk dəfə qarşılaşır. Nazir bildirir ki, dəyişikliklər istehlakçıların müdafiəsinə hesablanıb, lakin bu mifdir. Bunu hətta mənim söhbətləşdiyim biznesmenlər də təsdiqləyir. Bu cür məsələlərə inzibati müdaxilə xarici investisiya axınının qarşısını ala bilər. Əgər kimsə hansısa mexanizmi dəyişmək istəyirsə, biz etiraz etmirik. Lakin bu, sivil qaydalar çərçivəsində baş verməlidir. Bu addım isə SOCAR-la, yəni potensial investorla razılaşdırılmadan atılır".

**Səfir Yunanıstanın energetika naziri Panos Skurletisin "Azərbaycan tərəfi iqtisadiyyatdakı durğunluq səbəbindən DESFA-nın özəlləşdirilməsindən imtina etmək istəyir" açıqlamasına münasibət bildirib. O qeyd edib ki, bu cür bəyanatlar qəbulolunmazdır və təəccüb doğurur:** "Bu açıqlama bizdə təəccüb doğurdu. Bu bəyanat qəbulolunmazdır. Nazir Azərbaycana qarşı hörmətsizlik etməməli idi. İki dost ölkənin rəsmiləri özünü bu cür aparmamalıdır. Bəyanatın mahiyyətinə gəldikdə, səslənən fikirlər həqiqəti əks etdirmir. Azərbaycan, o cümlədən SOCAR bir çox ölkələrə, məsələn, Rusiya, Türkiyə, İran, Gürcüstan, İsveçrə, Malta, Bolqarıstan, Çernoqoriya, Serbiya və sair ölkələrə iri investisiyalar yatırıb və etibarlı tərəfdaş olduğunu sübut edib".

Yunanıstan hökuməti ölkənin qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin üçdə ikisinin 400 milyon avroya alınmasına dair müqaviləni 2013-cü ilin yayında imzalayıb. Lakin sonradan hakimiyyətə gələn yunan antiinhisar prinsiplərinə əsaslanan Yunanıstan dövləti SOCAR-ın səhm payının 17%-ni üçüncü tərəfə satmağını təklif edir. Üçüncü tərəfə satılması təklif olunan səhm paketini İtaliyanın "Snam" şirkəti almaq niyyətindədir. Amma belə görünür hökuməti bildirib ki, DESFA-nın səhmlərinin 66 faizini yox, 49 faizini SOCAR-a sata bilər.

Yunanıstanın qaz nəqli kəmərlərinə nəzarət edən DESFA-nın özəlləşdirməyə çıxarılmasından sonra bu şirkətlər uğrunda SOCAR-la Rusiyanın "Qazprom" şirkəti arasında kəskin rəqabət getdi. Sonda "Qazprom" gözlənilmədən DEPA-nın satışına dair tenderdən çəkildi, DESFA-nın səhmlərini isə SOCAR aldı.

Qeyd edək ki, Yunanıstan Avropa İttifaqının üzvü olduğuna görə bu sövdələşmə ancaq Avropa Komissiyası tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minə bilər. SOCAR-ın DESFA-nın səhmlərini almasına dair razılaşma Aİ-nin müvafiq komissiyası tərəfindən artıq 1 ildir ki, təsdiqlənmir. Aİ-nin izahı budur ki, bu sövdələşmə Yunanıstana təbii qazın topdan satışında rəqabəti poza bilər. Guya ki, Yunanıstan hökumətinin "qarnının ağrısı" bu deyil və ortada başqa niyyətlər var. Mümkündür ki, Azərbaycanın qaz bazarında getdikcə aparıcı mövqeyə çıxması Yunanıstanın və böyük ehtimalla, Aİ-nin sanksiyalarına baxmayaraq, hazırda çox sıcaq münasibətlər qurmuş Kreml hakimiyyətinin maraqlarına uyğun deyil. Beynəlxalq sanksiyalara məruz qalan "Qazprom" isə hazırda geniş bazarlar axtarmaqdadır. SOCAR-ın transmilli şirkətə çevrilməsi isə rəqiblərinin yuxusuna haram qatır. Bu baxımdan, ciddi maliyyə sıxıntıları yaşayan Yunanıstan hökumətinin bu dərəcədə özbaşınalığı başadüşülən və məntiqli deyil.

Maraqlıdır ki, Avropa Komissiyası vaxtilə SOCAR Yunanıstan şirkətini almağa dair razılaşma əldə edəndə Brüsseldə buna çox sevinmişdilər. Hətta yunan şirkətinin "Qazprom"a satılmaması üçün ABŞ və Avropa İttifaqı rəsmi Afinaya çox güclü təzyiqlər edirdi. Onlar açıq şəkildə mesaj verirdilər ki, Yunanıstan şirkəti SOCAR-a satmalıdır. Çünki SOCAR Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında və Rusiyanın Avropa qaz bazarında inhisarçı mövqelərinin zəiflədilməsində Qərbin əsas tərəfdaşıdır. Amma Aİ bu məsələdə hələ ki gözləmə mövqeyi tutur.

**Qeyd edək ki, iki gün əvvəl SOCAR prezidenti Rövnəq Abdullayev də "Yunanıstan hökuməti DESFA-nın özəlləşdirilməsi ilə bağlı keçirilən tender proseduruna zidd hərəkət edib"** deyə, açıqlama vermişdi.

"Əvvəlcə danışılan qaydalar pozulub. Biz də Yunanıstan hökumətindən bunun əsaslandırılmasını gözləyirik. Dəyişilən qaydaya əsasən, DESFA-nın qiyməti iki dəfə aşağı enir. Əgər obyektin gəlirliliyi aşağı salınırsa, deməli, onun qiyməti də aşağı enməlidir. Biz bu məsələləri Yunanıstan hökuməti ilə danışıqlarda qaldırmışıq və danışıqlar davam edir", - deyə R. Abdullayev qeyd edib.

❑ **"Yeni Müsavat"**

# Ölkənin maliyyə bosları niyə ictimaiyyətə açıqlama vermir?

### Ekspertlər maliyyə qurumlarının susqunluğunu vəziyyətdən çıxış yolu tapmamaları ilə izah edirlər...

**İki həftədir ki, ölkədə ciddi dollar ajiotajı hökm sürür. Bankların çoxu dollar satmır, satan banklar isə bunu kiçik limitlə həyata keçirir. Baş verənlər isə bazara psixoloji təsir göstərir və manat qara bazarda durmadan bahalaşmaqdadır. Ekspertlər isə bildirirlər ki, manat dəyərdən düşməklə bərabər, qara bazarda da tələbatını artırır. Qara bazarın genişlənməsində isə maraqlı qüvvələr var. Maraqlıdır ki, ölkənin maliyyə durumuna təsir edən və cavabdeh olan qurum və şəxslər bu durumda belə susqunluqlarını qoruyurlar.**

Mətbuata, ictimaiyyətə normal açıqlama verilmir. Həmçinin Mərkəzi Bank da həmişəki kimi susqunluğunu qoruyur. Maliyyə sahəsində mühüm fiqurlardan olan Mərkəzi Bankın sədri Elman Rüstəmov bir neçə gün əvvəl medianın qarşısına çıxsa da, manatla bağlı danışmaqdan imtina edib. O, "Baku-2016" 42-ci Şahmat Olimpiadasının açılışından öncə keçirilən mətbuat konfransında iştirak edib. Şahmat federasiyasının prezidenti olan baş bankir şahmat olimpiadası ilə bağlı fikirlərini də bölüşüb. Maraqlıdır ki, Elman Rüstəmov rəhbəri olduğu digər qurumla bağlı jurnalistlərin suallarını cavablandırmaqdan imtina edib. O, manatın məzənnəsi ilə bağlı sualları dinləyəndən sonra sakitcə zalı tərk edib.


Elman Rüstəmov


Samir Şərifov

Ekspertlər maliyyə qurumlarının susqunluğunu çıxılmaz durumda olmaları və vəziyyətdən çıxış yolu tapmamaları ilə izah edirlər. **Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, manatla, dollarla, qara bazarın çiçəklənməsi ilə bağlı məsələlər daha çox Mərkəzi Bank rəhbərliyinin verməli olduğu açıqlamadır:** "Çünki dollar satışına o nəzarət edir. Ola bilər ki, Elman Rüstəmovun başı şahmat üzrə olumpiadaya qarışıb. Bakıda hazırda şahmat olimpiadası keçirilir. Elman Rüstəmov da Azərbaycanın Şahmat Federasiyasının rəhbəridir. Halbuki qanunsuz rəhbəridir. Çünki "Mərkəzi Bank haqqında" Qanuna görə, onun heç bir ictimai təşkilatda vəzifə tutmağa ixtiyarı yoxdur. Amma hər halda, tutub. Yəqin ki, şahmatla başı qarışıqdır. Amma digər səbəb də odur ki, çıxıb danışmağa üz yoxdur. Nə deyəcək ki? Mərkəzi Bankın bugünkü hərəkətinə heç bir ad qoymaq olmur. Çünki Mərkəzi Bank elan edib ki, bir dollar bir manat 63 qəpikdir. Amma o məzənnə ilə satmır dolları. Bunu da heç kim heç cür əsaslandıra bilməz. Bunun əsaslandırması yoxdur. Bu səbəbdən də heç bir mətbuat konfransı keçirə bilmir".

**Ekspert qara bazarla bağlı yaranmış durumda da Mərkəzi Bankı günahlandırıb:** "Digər tərəfdən də faktiki məlumdur ki, qara bazarın da arxasında duran banklardır. Hazırda Elman Rüstəmov iyirmi ildən çoxdur ki, bankların himayəsini edir. Banklarla rəsmi və qeyri-rəsmi əlaqələri var. İndi də yəqin bu fəaliyyətdədir. Bankların bu yolla, qara bazar vasitəsilə pul qazanmasına imkan verib. Həm də məlumat verməyin də mənası yoxdur. Çünki Azərbaycan xalqı artıq bu qənaətə gəlib ki, Elman Rüstəmova inanmaq olmaz. Nə deyirsə, əksi olur. Ona görə də çıxıb danışmağın da mənası yoxdur. Digər tərəfdən də ehtimal edirəm ki, maliyyə qurumlarımız, valyuta məsələsi ilə bağlı olan qurumlar, Maliyyə Bazarlarına Nəzarət Palatası, Maliyyə Nazirliyi, Neft Fondu hazırda baş verənlər müzakirə edirlər. Ölkənin maliyyə sistemində yaranmış vəziyyətlə bağlı onların arasında bu saat mübahisə və müzakirə gedir. Vəziyyətdən çıxış yolunu axtarırlar. Təbii ki, aralarında fikir ayrılığı ciddidir. Çünki əvvəlki devalvasiyalar zamanı da olduğu kimi, Maliyyə Nazirliyi və Neft Fondu devalvasiyanın tərəfdarıdır. Mərkəzi Bank və Palata isə yox. Bu fikir ayrılığı bitmədiyi üçün də onlar çıxıb heç bir məlumat verə bilməzlər".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016



# Eldar Mahmudovun oğlu Nardaranda saxlanıldı

## Anar Mahmudov atasının nazir olduğu dövrdəki münasibəti gözləyirmiş, amma...

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin keçmiş şefi Eldar Mahmudovla bağlı xəbərlərin ardı kəsilmir. Keçmiş nazir vəzifədən çıxarılandan sonra onun ailə üzvlərindən bəzilərinin xaricə qaçması haqda məlumatlar yayılmışdı. Belə ehtimallar vardı ki, qaçanlardan biri də keçmiş nazirin oğlu Anar Mahmudov olub. Bugünlərdə isə məlum oldu ki, ölkədən gedən Anar Mahmudovun həyat yoldaşı Aida Mahmudovadır.**

Beynəlxalq Bankın hazırda həbsdə olan sabiq prezidenti Cahangir Hacıyevin qızı olan A.Mahmudova indi Londondadır. O, orada anası Zamirə Hacıyevaya ilə birgə yaşayır. Hər iki xanım "Beynəlxalq Bank işi" üzrə dindirilməyə çağırılıb və istintaqa gəlməkdən imtina edib. Hacıyevlərin kürəkəni, Eldar Mahmudovun oğlu isə Azərbaycandadır. Onu bir neçə gün əvvəl Bakının Nardaran qəsəbəsində keçirilən reyd zamanı saxlayıblar. Anar Mahmudov narazı halda reyddə iştirak edən polislərdən saxlanılmasının səbəbini soruşub. Ona bir daha reyd keçirildiyini bildirəndə isə polislərə irad tutub, özünün sıradan biri olmadığına işarə vurub. 33 bahalı maşına sahib olan, maşınlarının nömrə nişanları 009-la bitən A.Mahmudov polislərin onu tanımamasına etiraz edib. Onun sözlərindən belə çıxıb ki, polislər onu mütləq şəkildə tanımalı, reyd olsa belə saxlamalı deyilmişlər...

Polislər Nardarandakı reydlərin məlum əməliyyatların davamı olduğunu və ölkə rəhbərliyinin tapşırığı əsasında keçirildiyini Anar Mahmudova bildirəndən sonra keçmiş nazirin oğlu narazı halda maşına minərək yoluna davam edib.

Eldar Mahmudovun Nardaran qəsəbəsində dəbdəbəli imarəti var. Həmin imarət Eldar Mahmudov nazir olduğu dövrlərdə tez-tez kef məclislərinin keçirildiyi məkanlardan olub. Eldar Mahmudov vəzifədən çıxarılandan və Bilgəhdəki bağ evində nəzarət altına alındıqdan sonra Nardarandakı imarətində də kef məclislərinin arası kəsilib. Anar Mahmudov həmin imarətdə ara-sıra peyda olur. Bu məlumatlar A.Mahmudovun ölkədən çıxışına qadağa qoyulması haqda iddiaları da dolayısı ilə təsdiqləyir.

A.Mahmudov atasının nazirliyi dövründə "Caspian Crystal Holding"də birləşən ailə biznesini idarə edirdi. Bundan əlavə, yayılan məlumatda bildirilir ki, Eldar Mahmudovun oğlu Şamaxı rayonunda yüz hektarlarla torpaq sahəsini də ələ keçirib. Belə ki, Şamaxı bələdiyyəsinin mülkiyyətində olan 205 hektar torpaq sahəsi Anar Mahmudovun rəhbərlik etdiyi "Kometa-T" MMC şirkətinin adına rəsmiləşdirilib. Heç kimə sirr deyil ki, Eldar Mahmudov vəzifəsində sui-istifadə edib, korrupsiya ilə məşğul olub, cinayətlər törədib və s. Bu da sirr deyil ki, Eldar Mahmudovun oğlu biznes imperiyasını atasının hesabına əldə edib. Məsələnin bu tərəfi də var ki, atasının hesabına milyonlar əldə edən, onu küçədə polisin mütləq şəkildə tanımalı olması düşüncəsi ilə yaşayan təkcə Anar Mahmudov deyil. Bu da başqa bir yazının mövzusudur.

❑ E.HÜSEYNOV

---

**Ləğv edilmiş MTN-in həbsdə olan sabiq idarə rəisi, general-mayor Akif Çovdarova qarşı irəli sürülən yeni cinayət ittihamı bəzi məsələləri gündəmə gətirib. Sabiq MTN-çi büdcədən 1 milyon manatı agentura şəbəkəsinin saxlanması adı ilə götürüb mənimsəməkdə ittiham edilir.**




# Agentura şəbəkəsi necə maliyyələşir və formalaşır-sabiq MTN-çilər danışır

İttihamları qəbul etməyən A.Çovdarov həmin məbləğin agentlərə ödəndiyini bildirib. Lakin o, agentlərin kimliyini istintaqa açıqlamayıb.

Bütün bunlar Azərbaycan və dünya ölkələrində agentura şəbəkəsinin necə maliyyələşməsi ətrafında müzakirələr yaradıb. Eyni zamanda Çovdarovun agentlərin adını çəkməməsi də bəzi müəmmalara yol açıb. Xüsusi xidmət orqanlarının necə formalaşması, bu istiqamətdə kimlərə pul ödəndiyi, kontingentin özlərindən, yaxud kənardan daha çox olması maraq doğurur.

**MTN-in sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirdi ki, demokratik ölkələrdə qapalı ödəmə deyilən dövlət fondları mövcud olur:** "Bu fondlar milli təhlükəsizlik baxımından həyata keçirilən gizli əməliyyatlara xərclənir. Amma bunun xərcləmə qaydaları reqlamentlərlə müəyyən olunur və buna da nəzarət olur. Xüsusi xidmət orqanlarının tabe olduqları dövlət qurumları ayrılan məbləğlərin hansı yollarla nələrə sərf olunduğunu yoxlayır. Xüsusi xidmət orqanının daxilində də belə bir qurum var. Demokratik ölkələrdə bu quruma nəzarət edən əlavə bir qurum da olur. Azərbaycanda isə tamam fərqlidir. Nəinki xüsusi xidmət orqanına, digər qurumlara da nəzarət zəifdir. Bunlar olmadığına görə də yüksək səviyyədə korrupsiya halları var. Bu, yoxlanılması çətin olan orqanlarda daha yüksək səviyyədə olur. Onu da qeyd edim ki, hüquqi dövlətin olmadığı ölkələrdə xüsusi xidmət orqanlarının qeyri-qanuni gəlir mənbələri də olur. Bu qeyri-qanuni gəlir mənbələrindən də istədikləri kimi istifadə edirlər. Bəzi ölkələrdə hətta xüsusi xidmət orqanları beynəlxalq cinayətkar şəbəkələrlə əlaqəyə girir. Xüsusilə narkotik, insan alveri və bu kimi məsələlərdə. Kəşfiyyat, xüsusi xidmət orqanlarının əlavə qeyri-qanuni gəlir mənbələri də olur. Demokratik ölkənin milli təhlükəsizlik orqanının fəaliyyəti milli maraqlar üzərində qurulur. Bu sistemdə təsir agentləri və etibarlı şəxslər olur. Təsir agentləri və etibarlı şəxslərə maliyyə yardımı edilməyə də bilər. Burada əsas söhbət məxfi əməkdaşlardan gedir. Onların heç də hamısına daimi olaraq, başa düşüləcək dildə deyim, maaş verilmir. Hər hansı bir əməliyyata və verdiyi informasiyaya görə müəyyən məbləğdə maliyyə ödənilə bilər. İdeya verən, öz təşəbbüsü ilə xidmət göstərənlər olur. Bəzən haqqında o qədər ciddi kompromat olan şəxs var ki, nəinki xüsusi xidmət orqanından pul istəmir, əksinə, imkanı olanda bu orqana yardım da edir. Burada çox müxtəlif yanaşmalar mümkündür. Heç də hər əməkdaşlıq edən şəxs maaşa bağlanmır".

**Sabiq MTN polkovniki, politoloq İlham İsmayıl hesab edir ki, maliyyələşmə məsələsi bütün agentlərə şamil olunmur:** "Sovet dövründə belə bir ifadə var idi ki, "ideya vətənpərvərlik əsasında bir vətəndaş olaraq cəlb olunur". Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə vətəndaşlarının dövlətə xidmət etməklərinin borc olduğu önə sürüldü. Yəni deyirdik ki, bu sənin vətəndaşlıq borcundur, bunun müqabilində sənə maaş vermirik. Birinci yol budur. İkinci yol "kompromat material" yoludur. Yəni kiminsə günahı olur, istəsələr onu işə salarlar, nəticədə həbs edərlər. Yaxud əldə olan əks materialı üzə çıxararlar, həmin şəxs biabır olar. Üçüncü yol maliyyə əsasında olur. Bu daha çox xarici vətəndaşlar üçün həyata keçirilir. Vətəndaşa pul verirsən, sənin üçün işləyir. Bu, kəşfiyyata aiddir. Yeri gələndə əks-kəşfiyyatın agenturasına da pul verilir. Əgər cəlb olunan adamı təqdim edəndə informasiyalı şəxs olduğu, "xidmət"in ona pul verəcəyi deyilirsə, rəhbərlik buna razı olursa, bu mümkündür. Bundan əlavə, əgər agent dəyərli informasiya verirsə, əməliyyatçı rəhbərlik qarşısında məsələ qaldırır ki, bu şəxsin məlumatı əsasında vacib əməliyyat keçirmişik, dövlətimizə də xeyir vermişik. Bunun əsasında həmin şəxsə müəyyən məbləğdə maliyyə verilir. Məbləğ eyni olmur, yəni 100 manat, yaxud min manat da verilə bilər. Pul elə-belə ayrılmır, qol çəkdirilir, alınması qeyd edilir. Əgər Çovdarov məbləği mənimsəyibsə, müxtəlif yollarla edib. Yəni aldadıb qol çəkdirə bilər, yalandan müxtəlif adlarla olan agentlərə pul verdiyini qeyd edə bilər. Onlar 11 il vəzifədə oldular. Bu illər ərzində bu qədər məbləğdə pul mənimsənilməsi mümkündür".

**Sabiq MTN-çi agentura şəbəkəsinin necə formalaşmasına da aydınlıq gətirdi:** "Agent ona görə cəlb olunur ki, o, informasiya daşıyıcısı olur. Küçədən kimisə cəlb etdin, o informasiya verə bilmirsə, əhəmiyyəti yoxdur. O şəxslər cəlb olunur ki, onların informasiya vermə qabiliyyətləri olur. Cəlbetmə xətrinə cəlb olunmalar olmur. Agent cəlb olunduqdan sonra onun öyrədilməsi və tərbiyə edilməsi üçün xüsusi bir plan tutulur. Bunun əsasında bir növ ona dərs keçilir. Bu, bütövlükdə bir neçə illik plandır. Agentin öyrədilməsi daimi prosesdir. Agent var ki, təşəbbüskar agent adlanır. Yəni öz istəyi ilə gəlib deyir ki, sizə işləyə bilərəm. Təbii ki, həmin şəxslər ciddi şəkildə yoxlanılır".



**Sülhəddin Əkbər:** "Hər əməkdaşlıq edən şəxs maaşa bağlanmır"



**İlham İsmayıl:** "Agenturaya pul şifahi ayrılmır, qol çəkdirilir, alınması qeyd edilir"

❑ Cavanşir ABBASLI

---



# Yol polislərinə verilən cərimə faizi ləğv olunur?

**Bir neçə aydır yol polisi əməkdaşlarının cərimələrdən əldə olunan faizləri ala bilməməsi ilə bağlı mediada məlumat yayılıb. Sözügedən məlumatda hətta faiz sisteminin yaxın zamanlarda ləğv olunacağı da bildirilir. Özü də bu hazırkı iqtisadi durumla əlaqələndirilir.**

"Qafqazinfo" yayılan məlumatla bağlı Baş Dövlət Yol Polis İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyevlə əlaqə saxlayıb. O bildirib ki, hansısa yol polisi əməkdaşının əmək haqqına əlavə olunan faiz məbləğini almaması barədə quruma məlumat daxil olmayıb: "Ola bilər ki, kimsə məzuniyyətdə olduğu üçün ala bilməyib. Çünki məzuniyyət dövründə hesablanmır. Amma məbləğ qalan bütün əməkdaşların maaşına əlavə olunub. Kiminsə belə bir problemi varsa, məsələni ictimailəşdirməzdən əvvəl ondan yuxarı vəzifə tutan şəxslərə raportla məlumat verməlidir".

**Cərimə faizi məsələsinin ləğv olunması məsələsinə gəlincə isə K. Əliyev bundan məlumatlı olmadığını bildirib:** "Bununla bağlı qanunvericiliyə dəyişiklik edilib-edilməyəcəyi barədə məlumatlı deyiləm. Bilirsiniz ki, cərimələrdən əldə olunan vəsaitin 25 faizinin əmək haqqına əlavə edilməsi ilə bağlı cənab prezident tərəfindən sərəncam verilmişdi".

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Aprel dərsini unudan işğalçı - onu yenidən keçməli olacaq...

## Danışıqları sabotaj edən düşmən tərəfin arxayançılığı tam əsassızdır; hərb, yoxsa sülh seçimini erməni xalqı edəcək - hansını seçsə, onu da alacaq; **politoloq:** “Kiçik xalq böyük arzularla yaşaya bilməz...”

**Aprel ayındakı 4 günlük müharibədən sonra Qarabağa dair nizamlama prosesində nəhayət ki, sıçrayışın baş verəcəyinə inam ölmək üzrədir. Təəssüf ki, ötən 5 ayda Azərbaycan və Ermənistan prezidentlərinin qatıldığı cəmi iki yüksək səviyyəli görüş keçirilib ki, bu təmaslar da yalnız ənənəvi şablon, sırf xoşməramlı bəyanatların verilməsi ilə yadda qalıb, irəliləyişə gətirməyib. Nə Vyana şəhərindəki sammit, nə də böyük ümidlər bəslənən prezidentlərin Sank-Peterburq görüşü real həll mexanizmini işə salmaq üçün yetərli olmayıb.**

Belə təəssürat yaranır ki, vasitəçi dövlətlər atəşkəs rejiminin ömrünü daha da artırmaqla öz işlərini bitmiş hesab edirlər və mövcud situasiya, nə hərb, nə sülh vəziyyəti onları yeni də qane odur. Ola bilsin bu üzdən, yəni müəyyən arxayınçılıq səbəbilə sülh təşəbbüskarlığı sönük çəkil alıb, müharibə riskləri unudulub.

Lakin aprel eskalasiyası kövrək və nisbi sabitliyə bel bağlamağın nə qədər təhlükəli olduğunu bütün dünyaya sərt şəkildə nümayiş etdirdi. Azərbaycan və ordusu göstərdi ki, o, daha bir neçə il işğal rejiminə dözüm göstərmək niyyətində deyil. İşğala dözüm limiti artıq bitib. Aprelsonrakı situasiyanın əsas özəlliyi də elə budur - sülhün əldə olunması ləngiyərsə, hərb variantı qaçılmaz olacaq, ordumuz düşməni zorla öz ərazilərindən çıxarmaq zorunda qalacaq.

Söz yox ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri bunu da bilməmiş deyillər və faktiki surətdə Azərbaycan əsgəri tərəfindən 5 ay öncə dəyişdirilən status-kvonun fərqindədirlər. Hər necə olmasa, onların nəsə etməyə çalışması belə bir kövrək qənaət yaradır. Sabah isə onlar Moskvada bir araya gəlib danışıqlar prosesini irəli aparmaq üçün daha bir cəhd edəcəklər. Alınacaqmı? Söyləmək çətindir.

*****

Atəşkəsin süni şəkildə uzanması, deyəsən, bu arada işğalçı Ermənistanda da arxayınçılıq yaradıb. Belə ki, aprelin acı dərsini unudan təcavüzkar ölkədə yenidən köhnə bayatılar, maksimalist tələblər və absurd iddialar səslənməyə başlayıb. Bir çox erməni siyasiləri, ekspert və generalları yenə də “göylə” getməkdədirlər.

O sırada belə görünür, erməni silahlı birləşmələrinin komandanları da aprel döyüşlərində aldıqları zərbədən və məruz qaldıqları psixoloji sarsıntıdan aylar sonra özlərinə gələ bilmək üçün boşboğaz təbliğatdan səmərəli üsul fikirləşə bilməyiblər. Virtualaz.org xəbər verir ki, Dağlıq Qarabağdakı qondarma “müdafiə naziri” Levon Mnatsakanyanın növbəti müsahibəsi belə qənaətə gəlməyə əsas verir.

Mnatsakanyan nə deyib? İddia edib ki, əgər apreldə Ermənistan rəhbərliyi hərbi əməliyyatların dayandırılmasına razılıq verməsəymiş erməni tərəfi “başqa xarakterli vəzifənin” yerinə yetirilməsinə hazır imiş. Halbuki aprel döyüşlərində Azərbaycan ordusunun Qarabağda cəbhənin iki istiqamətində ermənilərin uzun illərdir möhkəmləndirilmiş müdafiə xəttini cəmi 40 dəqiqəyə, yaxud bir saata darmadağın etməsi ermənilərin özləri tərəfindən də təsdiqlənən faktdır.

Bu, əməliyyatların birinci günü baş verib. Sonrakı üç gündə isə tərəflərin səyləri əsasən əldə edilmiş hərbi üstünlüyün qorunub saxlanılmasına və itirilmiş mövqelərin qaytarılmasına hesablanmışdı. Azərbaycan ordusu itkilər hesabına da olsa, ələ keçirdiyi mövqelərin böyük hissəsini əldə saxlaya bildi. Ermənistan ordusunun isə ciddi itkilər verə belə, həmin mövqeləri geri almaq üçün göstərdiyi səylər nəticəsiz qaldı.

Hərçənd ki, həmin günlərdə erməni rəhbərliyinin boşboğazlığı və guya bütün mövqelərin geri alındığı, hərbi əməliyyatların dayandırılmasına dair razılığın ancaq bundan sonra verildiyi haqda bəyanatları yaddan çıxmayıb. Bu bəyanatlar internet mənbələrində indi də qalır. Hansı ki, çox keçmədən elə ermənilərin özləri birinci açıqladılar ki, 4 günlük müharibədə nə qədər mövqe itirilib və nə qədər ərazi Azərbaycanın nəzarətinə keçib - 2000 hektar *(Erməni tərəfi ictimaiyyəti sakitləşdirmək üçün rəqəmi kiçildərək rəsmən 800 elan edib).*

Sual yaranır: o zaman o hansı “başqa vəzifə” imiş ki, Serj Sərkisyanın atəşkəs barədə Moskvaya israrlı müraciətləri general Mnatsakanyana onu yerinə yetirməyə imkan verməyib? Bəlkə 4 günlük döyüşlərdə miskin durumu üzə çıxan erməni qüvvələri itirdiyi mövqeləri geri almaq bir yana, üstəlik, yeni ərazilər də tutmağa hazırlaşırmış ki, Moskvanın israrları nəticəsində hərbi əməliyyatların dayandırılması buna mane olub?

Şübhəsiz ki, ermənilərin belə imkanı olsaydı onu qətiyyən əldən verməzdilər. O zaman Mnatsakanyanın demoralizə olmuş ordusu bizə hörmətmi edib? Əlbəttə ki, yox. Ancaq aradan bir neçə ay keçəndən sonra erməni ordusunun darmadağın edilmiş məğlubedilməzlik imicini bərpa etmək üçün indi nə qədər desən boşboğazlıq etmək olar...

*****

Doğrudur, son aylarda düşmən təmas bölgəsində hərbi-texniki xarakterli müəyyən işlər görüb, öz mövqeyini gücləndirməyə çalışıb - hansını ki, Azərbaycan ordusu ciddiyə almamış deyil. Lakin bunlar çətin ki, hərbi balansın bərpası üçün kifayət eləsin. Ən azı ona görə ki, iqtisadiyyatı rüşeym şəklində olan, sürətlə boşalan və hətta orduya çağırışçı problemi yaşayan Ermənistanın Azərbaycanla müqayisədə böyük müharibə aparmaq potensialı yoxdur. Hamı bilir ki, Rusiya amili olmasa, Azərbaycan qısa zamanda bu miskin və acından ölən təcavüzkarın layiqli cavabını verər.

**“Bu gün Azərbaycan ordusu bütün Dağlıq Qarabağ ərazisini nəzarət altında saxlamağa imkan verən strateji yüksəkliklərə malikdir və bu, lazım gəldikdə uğurlu döyüş əməliyyatlarını aparmaq üçün istifadə ediləcək”. Bu barədə sabiq dövlət müşaviri Qabil Hüseynli deyib (axar.az). Politoloq da əmindir ki, əhalisinin sayı günbəgün azalan, iqtisadiyyatı ölən Ermənistan Azərbaycan torpaqları hesabına çox yaşaya bilməz.**

“Açığı, görünür, ermənilərlə xoşluqla Azərbaycanın ərazi bütövlüyünü təmin edən nəticələrə nail ola bilməyəcəyik. Çünki o dərəcədə ağlasığmaz xəyallarla məst olublar ki, hətta cəsarət edib Ağdam, Füzulinin adını dəyişdirirlər. Bütün bunlar göstərir ki, kiçik xalq böyük arzularla yaşaya bilməz. Hərbidə belə bir söz var - barıtı hər zaman quru saxla. Reallıq ondan ibarətdir ki, ərazi bütövlüyümüzün bərpası prosesi elə də asan olmayacaq. Rusiya müəyyən reveranslar etsə də, bunların haması heç də səmimi deyil. Çünki 4 günlük savaşdan sonra Sərsəng su anbarını almaq üzrəydik. Sərsəng su anbarı Azərbaycanın böyük bir ərazisinin suvarılması, aqrar sektorun inkişafı üçün tükənməz bir mənbədir” - ekspert qeyd edib.

**Q.Hüseynli son günlər Müdafiə Nazirliyinin apreldə ələ keçirilən yüksəkliklərdə möhkəmləndirmə işləri ilə bağlı göstərişini qətiyyən təsadüfi saymır:** “Lələtəpə, Talış yüksəkliyinin davamı olan və Tapqaraqoyunlu kəndinə qədər uzanan 14 yüksəkliyin hamısında ciddi texniki işlərin aparılması tələb olunur. Sözügedən yüksəkliklər kodlaşdırılmış şəkildə minalanıb və ciddi qoşun kontingenti yerləşdirilib. Vaxt gələcək, həmin yüksəkliklər Dağlıq Qarabağın daha uzaq nöqtələrini vurmaq üçün döyüş yüksəkliyi kimi istifadə ediləcək. O diplomatiya uğur qazanır ki, onun arxasında güclü ordu dayanır. Azərbaycan da məhz bu prinsiplə hərəkət edir”.



**Politoloq hazırda Ermənistanın hərəkətlərinin diqqətlə öyrənildiyini və buna uyğun nəticələr çıxarıldığını deyib:** “Ermənilərin indiyəqədərki hərəkətlərinin heç biri uğurlu danışıqlar diplomatiyası üçün zəmin yaratmır və sülh üçün təminat vermir. Bu səbəbdən Azərbaycan bir tərəfdən payızda danışıqlara hazırlaşır, digər tərəfdən isə hərbi potensialını artırır. Çünki Azərbaycan, belə getsə, danışıqları sabotaj edən Ermənistanla hərbi dildə danışmaq məcburiyyəti qarşısında qalacaq”.

*****

Görünür, hadisələr elə bu yöndə də inkişaf edir. İşğalçı ölkə və onun xalqına qaranlıq perspektiv vəd edən bu prosesi yenə yalnız Ermənistanın özü durdura bilər - Qarabağ məsələsində, nəhayət, “daşı ətəyindən töküb”, maksimalist tələblərindən əl çəkib ədalətli və real mövqe tutmaqla. Bir daha vurğulamağın yeri var: sülh, yoxsa müharibə seçimini ilk növbədə erməni xalqı edəcək. Hansını seçsə, onu da alacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Neft bazarından gözləntilər- danışıqlar davam edir...

## Ekspertlər bildirirlər ki, ciddi danışıqlar bazarın istiqaməti prizmasında çox müsbətdir

**Dünya neft bazarından yeni gözləntilər var. Rusiya və Səudiyyə Ərəbistanı neft bazarında sabitliyin qorunması və uzunmüddətli perspektivdə sabit sərmayə səviyyəsinin təmin olunması məqsədilə digər neft istehsalçıları ilə birgə fəaliyyət haqqında razılığa gəliblər. Bu barədə Rusiyanın energetika naziri Aleksandr Novakov və Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və mineral ehtiyatlar naziri Xalid ibn Əbdül Əziz əl-Faleh tərəfindən imzalanmış ölkələrin birgə bəyanatında deyilir.**

"Nazirlər neft bazarında sabitliyin qorunması və uzunmüddətli perspektivdə sabit sərmayə səviyyəsinin təmin olunması məqsədilə iri istehsalçı ölkələr arasında konstruktiv dialoq və sıx əməkdaşlığın xüsusi vacibliyini qeyd ediblər. Bununla əlaqədar, nazirlər digər neft istehsalçıları ilə birgə və ya kooperasiyada fəaliyyət göstərmək haqqında razılığa gəliblər",- bəyanatda deyilir.

OPEK-in baş katibi Məhəmməd Barkindo, eləcə də Qətərin və Əlcəzairin energetika nazirləri Məhəmməd ben Saleh əl-Səda və Nurəddin Buterfa Rusiya ilə Səudiyyə Ərəbistanı arasında neftin qiymətinin sabitləşdirilməsi üçün birgə tədbirlər haqqında razılaşmanı dəstəklədiklərini bildiriblər.

**Ekspert Fikrət Yusifov bildirir ki, dünya bazarlarında tələb və təklifin arasında yaranmış fərq səbəbindən artıq iki ilə yaxındır ki, neftin qiymətləri stabilləşə bilmir. O, musavat.com-a deyib ki, OPEK-in bu müddət ərzində dəfələrlə toplanaraq məsələyə pozitiv yanaşım etmək cəhdləri hər dəfə boşa çıxır:** "Budəfəki toplantının da fiaskoya uğrayacağı daha çox gözlənilləndir. Çünki belə qlobal məsələləri OPEK həll etmir. Bu məsələ dünyanın iqtisadi və siyasi güc mərkəzi olan ABŞ-ın istəyinə uyğun tənzimlənir. Növbəti toplantıda bütün tərəflərin əvvəlcədən hasilatın azaldılması və ya sabit saxlanılmasına dair razılaşdırdıqları təklif son məqamda deyək ki, yenə də Səudiyyə Ərəbistanı tərəfindən hər hansı bir bəhanə ilə pozula bilər. Yaxud bu formal toplantıda qəbul edilən pozitiv qərara sonradan tərəflərdən biri- elə İranın özü müəyyən bəhanələrlə əməl etməyə bilər. OPEK bu gün müəyyən siyasəti həyata keçirmək üçün bir alətdir və bundan artığına qadir deyil. Bu səbəbdən OPEK-in belə toplantılar vasitəsilə nəyisə həll edəcəyi inandırıcı deyil. Ötən dövr göstərdi ki, məsələnin siyasi tərəfləri onun iqtisadi tərəflərindən daha güclü və daha dayanıqlıdır. Əgər dediklərimizin əksi baş verərsə, yəni OPEK üzvləri növbəti toplantıda neft hasilatını azaltmaq barədə qərar qəbul edib onun icrasını həyata keçirərlərsə, bu halda neftin qiymətləri yüksələ bilər. Belə olduğu təqdirdə, bizim ölkəmiz də neft satışından valyuta gəlirlərini artıra bilər. Valyuta gəlirlərinin artımı həm manatın sabitliyinin təmin edilməsinə və həm də ölkədə bütövlükdə maliyyə sabitliyinin bərqərar olunmasına ciddi bir əsas yaratmış olar".

❑ **RÖYA**

# "Qara qızıl"ı" ağ qızıl" əvəz edə bilər, amma...

## Ekspert: "Pambıqçılıq dünya əmtəə birjasında daimi bazarı olan məhsullardan biridir"

**Ölkəyə daxil olan neft gəlirlərinin azaldığı bir vaxtda hökumət valyuta axınını təmin edəcək başqa sahələrin axtarışındadır. Qeyri-neft sektorunda ən uğurlu alternativ sahə isə kənd təsərrüfatının müxtəlif qolları, əsasən də pambıqçılıqdır.**

Dövlət başçısı İlham Əliyev də Salyanda pambıqçılıq sahəsinin inkişaf etdirilməsinin vacibliyindən danışıb və sözügedən bölgənin bu sahədə imkanlarının olduğunu bildirib. İ. Əliyev qeyd edib ki, ölkəyə valyuta gətirən ixrac məhsulları lazımdır: "Keçən il 400 hektarda pambıq əkilmişdisə, bu il 2 min hektarda əkilib, yəni beş dəfə çox. Proqram üzrə gələn il 7 min hektar sahədə pambıq əkiləcək. Ondan sonra daha da çox. Bu, insanlara əlavə maddi imkan yaradacaq, həm məşğulluğu artıracaq, həm də ümumi işimizə bir töhfədir".

**Prezident onu da bildirib ki, 1970-ci illərdə pambıqçılıq əhalinin rifahını da təmin edib, bu işdə işləyən insanlar yaxşı dolanıblar, yaxşı pul qazanıblar, evlər tikiblər:** "Pambıqçılıq indiki mərhələdə də insanlar üçün yeni imkanlar yaradacaq".

Prezidentin çıxışından da görünür ki, hökumət pambıqçılığı inkişaf etdirmək, dünya bazarına çıxarılacaq məhsullar arasında "qara qızıl"ı "ağ qızıl"la əvəz etmək istəyir. Bəs görəsən, pambıqçılıqla ölkəyə valyuta axınını təmin etmək mümkündürmü?



**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, ölkəyə valyuta axınını təmin etmək üçün bütün sektorlarda paralel olaraq işlərin aparılmasına ehtiyac var:** "Təkcə bir sahənin inkişaf etdirilməsi hansısa formada ölkəyə valyuta axınını, neft gəlirlərinin azalmasından yaranan itkini təmin edə bilməz. Burada ilk növbədə daxili iqtisadiyyat hədəfə alınmalıdır, daxili tələbat ödənilməlidir. Bununla ölkədən valyuta axınının qarşısı müəyyən qədər alınmalıdır. Daha sonra ixrac potensiallı sahələrə diqqət yetirilməlidir.

Azərbaycanda ixrac potensiallı sahələr əsasən kənd təsərrüfatı, yüngül və yeyinti sənayesidir. Bu sahələrə diqqətin artırılmasına ehtiyac var. Pambıqçılığa gəlincə, bu sahə dünya əmtəə birjasında daimi bazarı olan məhsullardan biridir. Müəyyən dövrlərdə pambığın qiymətinin bahalaşıb-ucuzlaşmasına baxmayaraq, son 10 ildə pambığın qiymətində artım baş verib. Bu isə imkan verir ki, Azərbaycanda pambıqçılıq sektoru inkişaf etsin. Həmin sahəyə müəyyən qədər maliyyə dəstəyi olmalıdır ki, növbəti dövrlərdə ixrac olunan məhsulların ixracı sayəsində ölkəyə gətirilən valyuta bunu kompensasiya edə bilər. Ümidvarıq ki, növbəti dövrlərdə pambığın qiymətində müəyyən qədər artımlar baş versin və bu da Azərbaycanda sektorun təşviq edilməsi üçün əsas amillərdən birinə çevrilə bilər. O cümlədən nəzərə almaq lazımdır ki, Azərbaycanda əvvəllər böyük pambıqçılıq təcrübəsi olub, bu təcrübənin fonunda pambıqçılıq sahəsinin inkişaf etdirilməsi hökumət üçün o qədər də çətin olmaz. Əgər nəzərdə tutulan təşviqedici addımlar həqiqətən həyata keçirilsə, dövlət qurumları bu sahənin inkişafında maraqlı olsalar deyilənlər reallaşa bilər. Pambıqçılıq həm gəlirli sahədir, həm də bu istiqamətdə ənənə mövcuddur. Sadəcə müasir texnologiyanın tətbiq edilməsi, müasir tələblərə cavab verən inkişaf metodunu tətbiq etməklə pambıqçılığı ölkəyə valyuta gətirən sahələrdən birinə çevirmək olar".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, pambıqçılıq gəlir gətirən sahələrdən biri olduğu üçün bundan xarici valyuta qazanmaq mümkündür:** "Mən ölkə başçısının çıxışında iki əsas məqamı vurğulamaq istəyirəm. Bunlardan biri pambıqçılıq sahəsi ilə bağlıdır. Bildiyiniz kimi, pambıqçılıq Azərbaycanda ənənəsi olan bir sahədir. Ölkəmizdə bu sahə həmişə yaxşı inkişaf edib. Lakin çox ağır, xərc və zəhmət tələb edən sahədir. Ancaq əlbəttə, istehsalı ilbəil artırmaqla bu sahədən müəyyən qədər valyuta təmin etmək mümkündür. Bunun üçün illərlə vaxt lazımdır, bu bir ilin içində əmələ gələn deyil. Azərbaycanda təxminən 300-400 min ton pambıq istehsal etmək, ondan həm daxili bazarın tələbatını ödəmək, həm də ixrac etmək vaxt tələb edir. Buna baxmayaraq, pambıqçılıq sahəsini inkişaf etdirmək çox vacibdir. Aparılan islahatlar içində pambıq istehsalının artırılması da vacibdir. Ancaq burada təkcə pambıqçılıqdan söhbət getmir. Məndə olan məlumata görə, hökumət baramaçılıq, ipəkçilik və digər sahələrin də inkişafına çalışır. Pambıqçılıq Azərbaycanın kənd təsərrüfatı sahəsinin ən çox gəlir gətirən sahələrindən biri olduğu üçün bundan xarici valyuta qazanmaq mümkündür. Dünya bazarında da pambığa tələbat hər zaman var".

**Deputatı icra başçılarının rayonlara xarici investorları cəlb etməsinin də vacibliyini vurğuladı:** "İkinci bir məsələ də icra başçıları ilə əlaqədar idi. Ölkə başçısı bildirdi ki, icra başçılarının fəaliyyətinə o zaman yüksək qiymət veriləcək ki, onlar öz rayonlarını saxlaya biləcəklər. Yəni artıq dövlət büdcəsindən əlavə vəsait istəməyəcəklər, xarici investorları öz rayonlarına cəlb edəcəklər. Bu çox ciddi məsələdir. Biz çalışırıq dövlət büdcəsindən yerli büdcələrə ayrılan vəsaitlərin miqdarı bir qədər azalsın. Artıq Azərbaycanın 6 rayonu özü-özünü təmin edir, qalanları isə dövlətdən dotasiya alır. İcra başçıları çalışmalıdırlar ki, yeni müəssisələr yaratsınlar, investisiya cəlb etsinlər və yavaş-yavaş dövlət dotasiyasından əl çəksinlər, öz vəsaitləri hesabına rayonu saxlasınlar".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016

# Prezidentin ASAN hədəfi

## Fəzail Ağamalı: "Qarşıya qoyulan məqsəd ölkədə korrupsiyanın miqyasını sıfıra endirməkdir"

## Qabil Hüseynli: "Məmur özbaşınalığının aradan qaldırılmasına böyük təkan verəcək"

**Prezidenti İlham Əliyev ölkədə bir çox dövlət xidmətlərinin ASAN-laşdırılması istiqamətində addımlar atmaqdadır. Dövlət başçısı "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin inkişafı, işçilərinin və könüllülərinin həvəsləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncam imzalayıb.**

Sənəddə deyilir ki, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə yaradılmış "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladığı gündən qısa müddət ərzində vətəndaşların böyük rəğbətini qazanıb. Bildirilir ki, "ASAN xidmət" modeli dövlət xidmətlərinin göstərilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində aparılan institutsional islahatların uğurlu nəticəsidir.

Bəs görəsən, qarşıdakı dövrlərdə hansı xidmətlər "ASAN xidmət" modelinə keçə bilər?

**Bu haqda "Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli bildirdi ki, bir çox sahələrdə rüşvətxorluğun kökünü kəsən bu sistemin əksər nazirliklərdə tətbiq olunması vacibdir:** ""ASAN xidmət" modeli özünü doğrultdu və dünyanın bəzi ölkələrində də tətbiq olunmağa başladı. Bu, Azərbaycanda dövlət xidmətinin elektronlaşdırılmış, yəni məmur iştirakı olmadan həyata keçirilməsinin bir variantıdır. "ASAN xidmət"in genişləndirilməsi ölkədə korrupsiyanın və rüşvətxorluğun yığışdırılmasına, məmur özbaşınalığının aradan qaldırılmasına böyük təkan verəcək. Bundan əlavə, vətəndaşların həm vaxtına qənaət edilməsinə səbəb olacaq, həm də əsassız yerə incidilməsi halları, indiyədək yol verilmiş nöqsanlar aradan qaldırılacaq. Lakin onu deyə bilərəm ki, bütün hökuməti ASAN-laşdırmaq çox güman ki mümkün olmayacaq. Kadr siyasətinə də diqqət yetirilməlidir. Peşəkar, ixtisaslı, regionçuluq təfəkküründən uzaq kadrların seçilməsinə, onlar üzərində çox kəskin nəzarətin qoyulmasına ehtiyac var. Elə edilməlidir ki, dövlət aparatı yalnız insanlara xidmət eləsin".

**Politoloqun fikrincə, Gömrük Komitəsinin, Vergilər Nazirliyinin, Səhiyyə Nazirliyinin, kommunal təsərrüfat idarələrinin, Kənd Təsərrüfatı İdarəsində bəzi sahələrinin ASAN-laşdırılmasına ehtiyac var:** "Əksər nazirliklərdə müxtəlif sahələrin ASAN-laşdırılması üçün imkan var. Lakin ilk növbədə rüşvət və korrupsiyanın yayıldığı qurumlara bu şamil edilməlidir. İlk növbədə Gömrük Komitəsi, Vergilər Nazirliyi, DYP, DİN-in bəzi sahələri və sairin bu sistemə keçirilməsinə ehtiyac var".





**Bu barədə "Yeni Müsavat"a danışan Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı qeyd etdi ki, qarşıya qoyulan məqsəd ölkədə korrupsiyanın miqyasını sıfıra endirməkdir:** "Götürülən hədəf bəllidir. "ASAN xidmət" fəaliyyətə başladıqdan sonra bir çox sahələrdə artıq rüşvətxorluğun və korrupsiyanın əlaməti görünmür. Hansı sahələr ki, "ASAN xidmət"in fəaliyyət sahəsində daxildir, o sahələrdə xidmət çox şəffafdır, bürokratik əngəllər yoxdur, süründürməçilik, təmənnalı münasibət yoxdur. Bu xidmətlə vətəndaşların bütün hüquqi ehtiyacları ödənilir. Onların ayrı-ayrı dövlət qurumları ilə təmaslarına son qoyulur və beləliklə, vətəndaşların məmurlarla təmasının qarşısı alınır, onların qarşılaşmış olduqları bürokratik əngəllər burada yaşanmır. Bundan sonra da hansısa sahədə rüşvətxorluq halları varsa, korrupsiya imkanları mövcuddursa, onlar hamısı "ASAN xidmət"in səlahiyyətlərinə daxil ediləcək. Bu o demək deyil ki, digər dövlət qurumlarının səlahiyyətləri əllərindən alınacaq. Nazirliklər də, komitələr də öz səlahiyyətlərini yerinə yetirəcəklər. Bu cür paralel aparılan iki idarəçilik sistemi nəticəsində vətəndaş-dövlət münasibətlərinin daha yüksək mərhələyə çıxmasının şahidi olacağıq. Ölkə prezidentinin də söylədiyi kimi, dünyada yalnız Azərbaycanın kəşfi olan bu xidmət vasitəsilə korrupsiyaya böyük zərbə endiriləcək və onun səviyyəsi minimuma düşəcək. Bir çox rayonlarda da "ASAN xidmət"in açılması gözlənilir. Hər halda, "ASAN xidmət" özünü tam mənada doğrulda bildi".

**Vergi və gömrük sisteminin ASAN-laşdırılmasına gəlincə, F.Ağamalı bildirdi ki, artıq bu sahələrdə də şəffaflıq yaranıb və bəzi səlahiyyətlər "ASAN xidmət"ə verilib:** "O sahələrdə ki, vətəndaş-məmur münasibətlərində rüşvətə yer var, onların hamısı artıq "ASAN xidmət"ə verilib. Həmçinin sözügedən sahələrdə ciddi islahatlar aparılıb. Demək olar ki, həmin sahələrdə bir neçə il önceki ilə indiki durum çox fərqlidir. Bütün əməliyyatlar şəffaf şəkildə həyata keçirilir. Vətəndaşlarla məmurların münasibətləri birbaşa deyil, əksər hallarda elektron hökumət portalı vasitəsilə müəyyən əməliyyatları aparırlar. Ölkə başçısının bu sahədə ortaya qoyduğu irada özünün müsbət nəticələrini verməkdədir".

❑ Nərgiz LİFTİYEVA

# Dollar Bakıda qalxır, gözlər isə Amerikadadır

## FES-in toplantısından gözləntilər- fikirlər haçalanır...

**ABŞ Federal Ehtiyat Sisteminin sentyabrın sonunda keçirəcəyi toplantıdan gözləntilər var. Proqnozlar isə fərqlidir. Bildirilir ki, sifarişlərin və istehsal həcminin azalması fonunda avqust ayında ABŞ-ın istehsal sektorunda aktivlik son 6 ayda ilk dəfə azalıb. Buna baxmayaraq, planlaşdırılan ixtisarların sayının az olması III rübdə iqtisadi inkişafın bərpasından xəbər verir. Dolların möhkəmlənməsi və neftin ucuzlaşması səbəbindən istehsal prosesində çətinliklər olsa da, əmək bazarında müşahidə olunan yaxşı göstəricilər cari ildə Federal Ehtiyatlar Sistemini (FES) uçot dərəcəsini artırmağa sövq edə bilər. (APA)**



"UniCredit" bankının Nyu-York ofisinin rəsmisi Harm Bandholts hesab edir ki, FES bu ay uçot dərəcəsini artırmayacaq. Onun sözlərinə görə, statistik göstəricilərin təhlili onu deməyə əsas verir ki, FES bu addımı dekabr ayında keçirəcəyi toplantıda ata bilər. Hazırda birjaların diqqəti ABŞ-ın Əmək Nazirliyi tərəfindən açıqlanacaq məşğulluq statistikasına yönəlib. Məhz bu statistika FES-in 20-21 sentyabr tarixlərində keçiriləcək toplantısında verəcəyi qərara təsir edəcək. "Reuters" agentliyinin sorğu keçirdiyi ekspertlərin fikrincə, avqust ayında ABŞ-da qeyri-aqrar sektorda 180 min yeni iş yerinin açıldığı elan olunacaq. Xatırladaq ki, iyun və iyul aylarında müvafiq olaraq 255 min və 292 min yeni iş yeri açılıb.

İnflyasiya üçün də nümunə olacaq mühüm göstəricilərdən biri ABŞ-da bu gün açıqlanacaq qeyri-kənd təsərrüfatı məşğulluq rəqəmidir. FES sədri Janet Yellen, sədr müavini Stenli Fişer və digər mərkəzi bank rəsmilərinin çoxu, məşğulluq bazarının daha da yaxşılaşmasının inflyasiyani mərhələli olaraq 2 faizlik hədəfə çatdıracağından əmindirlər. Yenə də bu versiya, Federal Açıq Bazar Komitəsinin (FOMC) Sentyabr ayı iclası yaxınlaşarkən, mərkəzi bank rəsmilərinin fikir ayrılığına gətirib çıxardır.

**İqtisadçı alim Fikrət Yusifov məsələ ilə bağlı musavat.com-a bildirib ki, FES keçən ilin sonlarından uçot dərəcəsini 0,25 - 0,50 faiz diapazonunda saxlasa da, bundan sonra keçirilən bir neçə toplantıda uçot dərəcəsini dəyişdirməyib:** "Hər dəfə qərarın dəyişdirilməməsi qlobal iqtisadiyyatda mövcud olan risklərlə izah edilir. Əslində bu gün dünya iqtisadiyyatının dörddə birinə sahib olan FES-in bu addımları başadüşüləndir. Bununla Birləşmiş Ştatların qlobal iqtisadiyyatın maraqlarına nə dərəcədə əhəmiyyət verdiyini nümayiş etdirirlər. ABŞ qlobal iqtisadiyyatda baş verən təlatümlərin onun öz iqtisadiyyatı üçün nə kimi nəticələrə gətirib çıxaracağının fərqindədir. Digər tərəfdən, dolların bahalaşması nəticə etibarı ilə Birləşmiş Ştatlarda iqtisadiyyatın inkişafına təsirsiz ötüşməyəcək. Bu, nəticə etibarilə ixrac potensialının zəifləməsinə gətirib çıxaracaqdır. Məhz bu səbəblərdən də FES son toplantılarında uçot dərəcəsinin qaldırılmasına getmədi. ABŞ iqtisadiyyatının qlobal iqtisadiyyatın dirçəlməsindən əldə edəcəyi dividentlər isə kifayət qədərdir. Yəni burada hər bir qərar üzrə dəqiq hesablamalar mövcuddur. ABŞ bundan əvvəl uçot dərəcəsini artıraraq, dolların sürətlə bahalaşmasına nail oldu və bütün dünyaya göstərdi ki, onun ilk baxışda çox sadə görünən bir qərarı dünya iqtisadiyyatına, maliyyə bazarına necə təsir etmək iqtidarındadır. Sonradan isə bu qərarı dəyişib, əks effekt almaqla, bunun əksinin necə baş verdiyini hər kəsə anlatdı. Bu, həm də dünya iqtisadiyyatı və maliyyə sistemi üçün bir əzələ nümayişi idi".

**Ekspertin sözlərinə görə, sentyabr ayının sonlarında məsələnin yenidən FES-in növbəti toplantısının gündəliyinə çıxarılması müsbət qərarın qəbul ediləcəyi anlamına gəlmir:** "Əgər müsbət qərar qəbul olunarsa, bu, öz təsirini dünyanın maliyyə bazarlarında müəyyən qədər göstərə biləcək. Yəni uçot dərəcəsi artırılacağı təqdirdə, dolların bir qədər də möhkəmlənməsi baş verə bilər. Bunun Azərbaycan manatının məzənnəsinə də müəyyən qədər təsiri mümkündür. Lakin bu daha çox psixoloji bir amil ola bilər. Manatın məzənnəsi milli iqtisadiyyatın vəziyyətindən, ölkənin valyuta ehtiyatlarının həcmindən və tədiyyə balansının durumundan asılıdır. Bizim iqtisadiyyatımız kifayət qədər güclüdür, valyuta ehtiyatlarımız da kifayət qədərdir. Bir problem tədiyyə balansının kəsiri ilə bağlıdır ki, real sektorun sürətli inkişafı ilə onun da yaxın gələcəkdə həll olunacağı gözlənilir".

**Professor Elşad Məmmədov musavat.com-a deyib ki, FES-in toplantısında faiz dərəcəsinin artırılması ehtimalı azdır:** "Bu, ilk növbədə ABŞ-da əmək bazarının, məşğulluq sahəsindəki stabilləşmənin zəif olması ilə, inflyasiya risklərinin yüksəkliyi ilə, onsuz da son dövrdə dolların möhkəmlənməsi nəticəsində ciddi zərərə məruz qalan Amerika ixracatçılarının maraqlarının nəzərə alınmasının vacibliyi, Böyük Britaniyanın Avropa Birliyindən çıxmasının fəsadları və digər amillərlə bağlıdır. Bununla belə, qeyd etmək lazımdır ki, hazırkı vəziyyətdə Azərbaycan iqtisadiyyatı üçün, konkret olaraq ölkənin milli valyutasının gələcəyi baxımından FES-in verəcəyi qərarın ölkə iqtisadiyyatına daha çox bilavasitə deyil, dünya bazarında neftin qiymətlərinə bağlılığı baxımından dolayısı təsiri gözlənilir".

❑ RÖYA

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016

# Aygün Bəylərin qardaşı marixuana toxumuna görə qatil olub

## Elnur Hümmətovun qətlinin yeni təfərrüatları üzə çıxdı

**Əməkdar artist Aygün Bəylərin qardaşı Abbas Hümmətovun iştirakı ilə törədilən cinayətin təfərrüatı məlum olub.**



"Report" xəbər verir ki, Elmir Alxazov, Ramil Əsirov, qardaşı Elnur Əsirov, Fuad Məmmədzadə, Abbas Hümmətov birlikdə 2013-cü ilin fevral və mart aylarında C.Alxazovun yaşadığı həyət evində marixuana əkib-becərmək barədə razılığa gəliblər.

F.Məmmədzadə bu məqsədlə internet vasitəsilə Hollandiya və İngiltərədən marixuana toxumu sifariş verib. O, 25 ədəd dibçək və torf əldə etdikdən sonra həmin dibçəkləri C.Alxazovun evinə gətirib, otağın birində əkib-becərməyə başlayıblar. Bir müddət sonra onlar Elnur Hümmətovun narkotik vasitələrin əkib-becərilməsi barədə hüquq-mühafizə orqanlarına məlumat verəcəyindən şübhələnərək onu qətlə yetirmək qərarına gəliblər.

F.Məmmədzadə A.Hümmətov, R.Əsirov və E.Alxazovla birlikdə Elnur Hümmətovu marixuana əkib-becərdikləri evə gətiriblər. Elmir Alxazov onunla söhbət edərkən aralarında mübahisə baş verib. O, E.Hümmətovu yerə yıxıb, F.Məmmədzadə və R.Əsirov Elnurun əl və ayaqlarını tutaraq əvvəl balış, sonra isə əlləri ilə onu boğublar. Daha sonra onun meyitini sellofan torbaya qoyub yapışqan lentlə bağlayıblar və həmin evin həyətində torpağı üç metr dərinliyində qazaraq orada basdırıblar.

Faktla bağlı Cinayət Məcəlləsinin 120.2.1-ci (bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

Xatırladaq ki, hadisə ilə bağlı Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb. Məlumatda bildirilib ki, Suraxanı Rayon Polis İdarəsi və rayon prokurorluğunun əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində 2013-cü ilin iyun ayının 16-dan itkin düşmüş şəxs kimi axtarışda olan Bakı şəhər sakini Elnur Hümmətovun qətlə yetirildiyi müəyyən edilib.

Faktla əlaqədar həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində məlum olub ki, E.Hümmətov 2013-cü ilin may ayında həmyerliləri Fuad Məmmədzadə, Elmir Alxazov, Abbas Hümmətov, Ramil Əsirov və qardaşı Elnur tərəfindən Xəzər rayonunun Qala qəsəbəsi ərazisində boğulma yolu ilə qətlə yetirilib.

Cinayəti törətməkdə şübhəli bilinən şəxslər polisin keçirdiyi əməliyyat nəticəsində saxlanılaraq istintaqa təqdim olunublar.

Araşdırmalar zamanı məlum olub ki, qeyd edilən şəxslər cinayətin izini itirmək məqsədilə meyiti Qala qəsəbəsində əvvəldən müəyyən etdikləri yerdə basdırıblar.

Polis və prokurorluq orqanları əməkdaşları tərəfindən hadisə yerinə birgə baxış keçirilib və E.Hümmətovun meyitinin qalıqları basdırıldığı yerdən ekskumasiya olunaraq Məhkəmə Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinə göndərilib.

Qeyd edilən faktla bağlı Suraxanı Rayon Prokurorluğunda cinayət işi başlanılıb və iş digər istintaq hərəkətlərinin davam etdirilməsi üçün Bakı Şəhər Prokurorluğuna göndərilib.

Tutulan şəxslərdən Abbas Hümmətov əməkdar artist Aygün Bəylərin qardaşı, qətlə yetirilən şəxs isə əmisi nəvəsidir.

# Çarəsiz ana övladı üçün imdad diləyir...

## Serebral iflic xəstəliyindən əziyyət çəkən balaca Cahangirin yardıma ehtiyacı var



**1 yaş 9 aylıq balaca Cahangirin yardıma ehtiyacı var. O, serebral iflic xəstəliyindən əziyyət çəkir. Redaksiyamıza müraciət edən balaca Cahangirin anası Bakı şəhər sakini Adilə Həsənova imkanlı şəxslərdən və həkimlərdən övladının müalicəsində ona yardım edilməsini xahiş edir:**

"Övladım 6 aylığında, yarımçıq dünyaya gəlib. Uşağımı 29 gün Respublika Perinatal Mərkəzdə saxladılar. Burada uşağım haqda mənə dedilər ki, vəziyyəti ağırdır. Amma ağırlıq dərəcəsini, xəstəliyini demirdilər. Sonradan bildik ki, uşaq beyinlə əlaqədar sağ tərəfdən iflic olub. Sonra dedilər ki, uşaq sudurqa keçirib. Biz uşağı evə gətirdik, müalicə etdirdik. İki dəfə müalicə götürdük, gördük ki, faydası var, uşaqda inkişaf gedir. Daha sonra sahə həkiminin yanına apardım. Siroplar verdilər. Hazırda uşaq otura, dura, gəzə bilmir. Həkim sonda diaqnoz qoydu ki, uşaq serebral iflicdir. Biz bu xəbəri eşidəndə çox pis olduq. Çünki uşaq anadan olan gündən bu barədə heç kim bizə bir söz deməmişdi. Uşağım 1 yaş 9 aylıq olsa da, onda heç bir irəliləyiş yoxdur. İnkişafdan qalıb, ayaqları tamam boşdur, yerimir, oturmağa meylli deyil. Uşağımın problemləri çoxdur. Həkimlər deyir ki, müalicəsi var. Amma bir ayağı tam sağalmayacaq. Mən bərpa mərkəzlərinə gedirəm ki, uşaq masaj olunsun. Amma məni qoymurlar ki, hələ tezdir. Pulum olmadığı üçün mənə biganə yanaşırlar. 9 nömrəli uşaq poliklinikasına getmişəm, deyirəm ki, kağız verin ki, mən uşağımı Mərdəkanda bu cür xəstə uşaqlar üçün istirahət mərkəzi var ora aparım. Orada bu cür uşaqları masaj edir, toka verir, müalicəvi sulara salırlar. Min cür bəhanə ilə mənə kağız vermədilər. Mən 2 saylı Nevroloji xəstəxanada yatmışam. Bu xəstəxanada uşağıma baxmırdılar. İynələr vururdular, pul vermirdim deyə mənimlə kobud rəftar edir, uşağıma biganə yanaşır, arxamca danışırdılar. Buranın masajı, müalicəsi məni qane etmədi. Nevroloji xəstəxanada həkim dedi ki, bu uşaq pensiya kağızına görə gəlibsə, 2 yaşı olmamış verməyəcəyik. Yeni Günəşlidə bərpa mərkəzi var. Mehriban Əliyevanın razılığı ilə açılıb. Uşağı ora aparmışam, deyirlər ki, təqaüd kağızı gətirin uşağı bu mərkəzdə pulsuz masaja, toka, idmana götürək. Həkim də mənə kağız vermir, deyir 2 yaşı olsun baxaq, sonra verərik. Mənə sosial yardım da vermirlər. Dəfələrlə müraciət etsəm də müsbət cavab ala bilməmişəm. Bəs mən bu uşağı necə, hansı pulla müalicə etdirim? Uşaq hər gün gözümün önündə əziyyət çəkir. Ailə durumum yaxşı deyil. Anamın yanında qalıram. Özüm də işləyə bilmirəm. Çünki uşağa baxmaq lazımdır. Yoldaşım işləsə də deyir ki, pulumu vermirlər. Ondan da mənə kömək yoxdur. Mən istəyirəm ki, uşağımı müalicə etdirim, sağalsın. Bilirəm ki, onda irəliləyiş olacaq. İmkanlı şəxslərdən, həkimlərdən xahiş edirəm ki, uşağın müalicəsində mənə köməklik etsinlər".

❑ **Günel MANAFLI**

bakcell

# "Azərpoçt"la pul köçürməsi həyata keçirənlərə "Bakcell"dən pulsuz dəqiqələr!

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti «Ulduzum» sadiqlik proqramı çərçivəsində ölkənin vahid dövlət poçt operatoru olan "Azərpoçt" MMC ilə birlikdə yeni kampaniyaya start verib.**

**Kampaniya çərçivəsində "Azərpoçt"un istənilən şöbəsində "Zolotaya Korona" sistemi üzərindən pul köçürmələri həyata keçirən hər bir şəxs «Ulduzum» sadiqlik proqramı tərəfindən şəbəkədaxili danışıqlar üçün 5 dəqiqə əldə edəcək. Dəqiqələrin balansa yüklənməsi üçün abunəçi öz "Bakcell" nömrəsini "Azərpoçt" əməkdaşına təqdim etməlidir. Əldə edilən bonus dəqiqələri 3 gün ərzində istifadə edilə bilər. Kampaniya 1 dekabr 2016-cı il tarixinə qədər davam edəcək.**

**Qeyd edək ki, 2.1 milyon nəfərdən çox abunəçisi və 180-dən çox tərəfdaşı olan «Ulduzum» bu gün abunəçilərə müxtəlif çeşidli güzəşt və xidmətlər təklif edən, həmçinin öz abunəçilərinin və «Ulduzum» proqramının tərəfdaşları olan müəssisələrin müştərilərinin loyallığını təşviq etməklə təkcə Azərbaycanda deyil, Yaxın Şərq, Mərkəzi və Cənubi Asiya və Şimali Afrika regionunda ən yaxşı istehlakçı xidmətidir.**

**«Ulduzum» proqramına qoşulmaq üçün "1" yazıb 5555 nömrəsinə pulsuz SMS yollamaq kifayətdir.**

**«Ulduzum» proqramından istifadənin daha asan olması məqsədilə abunəçilərin istifadəsinə verilən "Bakcell" «Ulduzum» Applikasiyasını (həm iOS, həm də Android platforması) www.ulduzum.a keçidindən istifadə edərək yükləmək olar. Bu applikasiyasını yükləməklə abunəçilər tərəfdaş siyahısına və endirim faizlərinə, xəritədə onlara yaxın olan tərəfdaşlara və öz istifadə tarixçəsinə asan keçid əldə edə bilərlər.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**



## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**

YENİ MÜSAVAT
N 198 (6519) 7 sentyabr 2016

**Yeni tədris ilinin başlanması bu il ali məktəbə qəbul olan tələbələri də yaşayış yeri tapmaq problemi ilə üzləşdirib. Çünki ali məktəblərin yataqxanası yoxdur. Yataqxanası olan az sayda universitetlər var ki, ora bütün tələbələrin yerləşdirilməsi mümkün deyil. Kirayə evlərin qiymətləri də baha olduğu üçün tələbələr çarəsiz vəziyyətdə qalıb.**



# Tələbə yataqxanaları - xaricdə və bizdə...

## Xaricdə beşulduzlu hoteli xatırladan yataqxanalar və Azərbaycandakı boz rəngli divarlar



Ümumiyyətlə, Azərbaycanda tələbə yataqxanası deyəndə gözünüzün önünə boz rəngli divarlar, rütubətli hava, sınıq-sökük mebel və çirkli pəncərələr gəlir. Bu yataqxanaların idman zalı, kitabxanası, oyun zalı və geniş həyəti, bir sözlə, tələbənin yaxşı yaşayışını, oxumasını, istirahətini təmin edəcək heç bir şəraiti yoxdur. Azərbaycanda tələbələrin əksəriyyəti tələbəçiliklərinin dadını çıxara bilmir, onların günü daha çox gündəlik məişət problemlərini düşünməklə keçir.

Sovet dövründə universitetlərin yataqxanaları tələbələrin əksəriyyətini qəbul etməyə hazır idisə, sonradan məcburi köçkün problemi bu məsələdə vəziyyəti dəyişdirdi. Çünki yataqxanaların çoxunda qaçqınlar məskunlaşdı. Digər yataqxanalar isə yararsız vəziyyətdə olduğundan tələbələrin burada qalması mümkünsüzdür. Universitetlərin şəhərin mərkəzindən kənara köçürüləcəyi, yataqxanalar tikiləcəyi deyilsə də, hələ ki reallaşan bir durum yoxdur. Azərbaycandan fərqli olaraq digər ölkələrdə tələbə yataqxanalarındakı şərait bəs edir ki, tələbələr heç yerə gedib pul xərcləmədən orada dərs oxuya, dincələ bilsinlər. Həm gözəlliyi, həm də rahatlığı ilə seçilən bir neçə yataqxana barədə internet üzərindən kiçik bir araşdırma apardıq.

Məlum oldu ki, dünyanın ən möhtəşəm tələbə yataqxanalarından biri Danimarkada yerləşir. Kopenhagen yaxınlığında yerləşən bu yataqxana 2006-cı ildə tikilib. 7 mərtəbədən ibarət olan yataqxananın 360 otağı var. Yataqxanada bir nəfərlik otaqlar 26-33 kvadrat metr, 2 nəfərlik otaqlar 45 kvadrat metrdir. Bütün otaqlarda yerdən istilik və ayaqyolu, hamam mövcuddur. Hər 30 otağa 1 mətbəx verilib. Ümumilikdə yataqxananın 12 ortaq istifadəli mətbəxi var. Hər mətbəxdə 4 soyuducu, 2 plitə və qida hazırlanması üçün lazım olan hər bir avadanlıq mövcuddur. Həmçinin yataqxananın geniş həyəti, kitabxana və kompüter otağı da mövcuddur.

Fransanın Savanna İncəsənət və Dizayn Kollecinin (SCAD) yataqxanasını da ən yaxşı tələbə yataqxanası kimi nümunə göstərmək olar. Bu yataqxananın öz bağı, hovuzu, hətta kiçik açıq hava kinoteatrı belə var. Buradakı möhtəşəm mənzərəni də unutmayaq. Bu yataqxanada qalan tələbələr asanlıqla uğur qazanırlar. Əsası 1978-ci ildə qoyulan kollec dünyanın ən yaxşı stilistlərini yetişdirir. Ən möhtəşəm yataqxanalardan biri də qardaş Türkiyədə, İstanbulda yerləşən Atatürk tələbə kampusudur. Bu kampusun 90 min kvadrat metr sahəsi var. Kampusda yataqxana, kitabxana, camaşırxana, istirahət sahəsi və Şərq üslubunda hazırlanan məkanlar var. Kampusda inzibati bina, ictimai xidmət binası, kafe, idman zalı və kitabxana var. Beş ulduzlu hoteli xatırladan bu yataqxanalara tələbələr yalnız kart sistemi ilə daxil ola bilirlər. Tək və üç nəfərlik otağı olan yataqxana otaqlarının hər birində tualet, hamam, kiçik soyuducu, yazı stolu və geyim dolabı var. Tələbələr üçün həmçinin ortaq çalışma otaqları, televiziya izləmək üçün otaqlar var. Yataqxana 5 blokdan ibarətdir. Hər blokda isə 711 tələbə qala bilir. 1000 nəfərlik yeməkxana, 600 nəfərlik konfrans salonu, 270 nəfərlik idman zalı var.

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev ali məktəblər şəhər kənarına köçürülsə, yataqxanaların da formalaşa biləcəyini dedi:** "Yüksək reytinqə malik olan universitetlərin həm də böyük kampusları olur. Kampuslar universitetlərin tərkib hissəsi kimi çox böyük önəm kəsb edir. Şübhəsiz ki, həmin kampuslara tələbə yataqxanaları da daxil edilir. Sovet dönəmində demək olar ki, bütün ali məktəblərin yataqxanaları var idi. Bu yataqxanalar tələbələrin sosiallaşması üçün çox böyük önəm kəsb edirdi. Yataqxanaların həyətində idman meydançaları, kitabxanalar var idi. Əyalətdən gələn tələbələrin çox böyük kəsimi həmin yataqxanalarda yerləşirdi. Bu həm də daha yaxşı oxumaq üçün şərait yaradırdı. Ancaq sovetlər dağıldıqda sonra təhsil müəssisələrinin yataqxanalarının böyük bir qismi demək olar ki, təmir olunmadı, sıradan çıxdı. Böyük bir qismi isə bizdən asılı olmayaraq müharibə nəticəsində qaçqınlar tərəfindən zəbt olundu. O zaman başqa çıxış yolumuz da yox idi. Böyük qaçqın kütləsi gəlirdi və onlar tələbə yataqxanalarında yerləşdirildi. Ancaq buna baxmayaraq, ali məktəblər yataqxanalarının olmasında maraqlı olmalıdır. Ali məktəblərdə demək olar ki, ödənişli təhsil böyük faiz təşkil edir. Onun hesabına indiyə qədər kiçik də olsa tələbə yataqxanaları inşa etmək olardı. Onsuz da tələbə təqaüdlərinin böyük məbləğdə olmaması tələbələrin böyük bir kəsiminin kirayənişin yaşamasında onların əziyyət çəkməsinə səbəb olur. Yəni verilən təqaüd kirayə pulunu verməyə yetmir. Buna görə də yataqxanaların olması olduqca vacib məsələdir. Düşünürəm ki, tələbə yataqxanalarının inşa edilməsi mütləqdir".

**E. Əliyev yataqxana probleminin xarici tələbələrin sayına da təsir etdiyini dedi:** "Yataqxanaların olmaması xaricdən Azərbaycana oxumağa gələn tələbələrin sayına da təsir edir. Məsələn, sovet dönəmində Neft Akademiyasının, BDU-nun xarici tələbə yataqxanası anlayışları var idi. Azərbaycana oxumağa gəlmək istəyən xarici vətəndaşları bəlkə də ilk növbədə onların yaşayış şəraiti maraqlandırır. Şübhəsiz ki, bu da indi Azərbaycanın ali məktəblərinə oxumağa gələn xarici tələbələrin sayını xeyli aşağı salıb. Bundan başqa, əsas məqamlardan biri də universitetlərin şəhər mərkəzlərindən köçürülməsi məsələsidir. Ali məktəblər şəhər kənarına köçürülsə, kampus da, yataqxanalar da formalaşa bilər. Şəhərin mərkəzində bu cür şəraitin yaradılması artıq qeyri-mümkün bir hal alıb. Gələcəkdə universitetləri şəhər kənarında yerləşdirmək mümkün olsa, hesab edirəm ki, yataqxana problemini də həll etmək mümkün olacaq".

❑ **Günel MANAFLI**




# Qafqaz Universiteti heç vaxt Bakı Ali Neft Məktəbinin idarəçiliyinə verilməyib

**"Avqustun 5-dən Qafqaz Universitetində fəaliyyət göstərən müəllimlərin hamısı işdən azad olunub və onlar ölkələrinə qayıdıblar. Gedənlərin arasında ali məktəbdə rəhbər vəzifələr tutanlar da olub. Onların sayı müəllim və texniki işçilər də daxil olmaqla, 45 nəfər idi".**

Bunu Qafqaz Universitetinin yeni rektoru Havar Məmmədov APA-ya müsahibəsindən deyib.

Onun sözlərinə görə, hazırda ali məktəbdə yalnız azərbaycanlı müəllimlər fəaliyyət göstərir: "Ayrı-ayrı fənlərlə bağlı kadr çatışmazlığı var. Bu sahədə Təhsil Nazirliyi bizə əməli kömək edəcək. Dərslərin boş keçməsinə imkan verilməyəcək. Sözsüz ki, kadr və digər məsələlərdə ciddi dəyişikliklər, lazımi islahatlar olacaq. Kim işinin öhdəsindən gələcəksə, onunla əməkdaşlığı davam etdiriləcək".

**H.Məmmədov qeyd edib ki, Qafqaz Universiteti heç vaxt Bakı Ali Neft Məktəbinin idarəçiliyinə verilməyib:** "Sadəcə, Qafqaz Universitetinin rektoru işdən çıxarıldığı zaman müvəqqəti olaraq rektor vəzifəsinin icrası Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova tapşırılıb. Universitetin bağlanması söhbəti olmayıb və bu gün sərbəst özəl ali məktəb kimi fəaliyyət göstərir. Qafqaz Universiteti ətrafında yayılan xəbərlər tələbələrin bir hissəsinin ixtisas seçiminə təsir edib. Mövcud hadisələr ali məktəbə qəbul faizinin aşağı düşməsinə səbəb olub. Bu il Qafqaz Universitetinə ayrılan 1049 plan yerinə 703 tələbə qəbul olub, ən yüksək bal 696 bal təşkil edib".



# Bakıda yağış, rayonlarda dolu

**Sentyabrın 7-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi günün ikinci yarısında mülayimləşəcək.

Havanın temperaturu gecə 19-23° isti, gündüz 25-28° isti, Bakıda gecə 20-22° isti, gündüz 26-28° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə dolu düşəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 18-23° isti, gündüz 24-29° isti, dağlarda gecə 9-14° isti, gündüz 15-20° isti olacağı gözlənilir.

Tibbi-meteoroloji-proqnoza gəlincə, sentyabrın 7-də Abşeron yarımadasında xəzri küləyinin əsməsi və iqlim normasına yaxın temperatur şəraiti meteohəssas insanlar üçün əsasən əlverişlidir. Sentyabrın 8-də zəif küləklərin üstünlüyü fonunda havada rütubətliyin bir qədər çox olması bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

YENİ MÜSAVAT

Son səhifə

N 198 (6519) 7 sentyabr 2016



## Bu şalvarı geyinənin sellüliti yox olur

**Bədən temperaturunu normal saxlayaraq, qanın hərəkətini sürətləndirən şalvarlar qadınların ən yaxın dostu olacaq. Çünki braziliyalı modelyer Aleksandra Herçkoviç tərəfində hazırlanan şalvar qadınların bədənini selelütdən xilas edir.**

Rio de Janerodakı moda həftəsində ictimaiyyətə tanıdılan cins şalvar sahibinin bədən temperaturunu normal saxladığı üçün orqanizmi bir çox problemlərdən uzaq tutacaq. Qəribə şalvar 5 illik araşdırmalardan sonra hazırlanıb. Şalvarın satışa çıxarıldıqdan sonra rekord sayda satılacağı gözlənilir.

## Qadınlar şirniyyatı sevir, çünki...

**Kanadanın MV Bill Universitetinin professorları qadınların şirniyyat sevmələrinin səbəbini genetik faktorlarla izah edirlər. Mütəxəssislərin sözlərinə görə, qadınların genlərindən gələn bir hüceyrə dondurmanı, şokoladı, konfeti və digər şirniyyatları onlara daha çox sevdirir.**

“Apetie” jurnalında yayımlanan nəticələrə görə, 4 yaşları olan 150 uşaqdan hansı yeməkləri daha çox sevdikləri soruşulub. Qızlar daha çox şirniyyatları sevdiklərini deyiblər. Qadınların beynində yeməklərə verilən reaksiyaya nəzarət edən dopamin hormonu qızların daha çox şirniyyatlara yönəlməsinə kömək edir. Araşdırmanı aparan professorlardan biri insanların yeyib-yemədikləri şeylər haqqında onları günahlandırmağa ehtiyac olmadığını deyib. Çünki insanların yemək istəkləri belə genlə əlaqəlidir.

# Pişik sahibinin əlindən Londondan Şotlandiyaya qaçdı

**Londonda öz sahiblərindən qaçan pişik Şotlandiyada tapılıb. Bu, pişiyin öz evindən 725 kilometr uzaqlaşması deməkdir. Bu barədə lenta.ru saytı yazıb. 10 yaşlı Pablo adlı pişik itkin düşəndən bir il sonra Şotlandiyanın o qədər də böyük olmayan Rosayt şəhərində tapılıb.**



Pablo bankın avtomatik qapılarından içəri girib və kresloda yuxuya gedib. Bank işçiləri onu veterinara təhvil verəndə üzərində sahibinin kimliyi olan mikroçip tapıblar. Təxmin edilir ki, pişik Şotlandiyaya yük maşınının üstünə hoppanaraq çatıb. Bu vaxta qədər dəfələrlə təcrübədə pişiklərin uzun məsafə qət etmələri görünüb. Amma bu zaman pişiklər daha çox evə qayıtmaq üçün belə “səyahətlər” ediblər.

# Körpələr arasında iməkləmə yarışı keçirildi

**6-9 aylıq 100-dən çox körpə 7 metr uzunluğundakı sahədə iməkləmə yarışında güclərini sınayıb. Ətraf mühiti toxunaraq öyrənməyə çalışan hər bir kiçik insan üçün iməkləmə təbii və vacib bir ehtiyac sayılır. Moskvada toplanan 6-9 aylıq bir-birindən şirin 100-dən çox körpə isə iməkləmə yarışına qatılıb. 7 metr uzunluğundakı yarış sahəsini daha sürətli iməkləmək üçün “tər tökən” balaca idmançıların köməyinə oyuncaqlar, süd şüşələri, televizor pultları, cib telefonları, smartfon və noutbuklar gəlib. Onlar həmin əşyalara tez çatmağa çalışıblar. Bəzi yarış iştirakçılarının iməkləmə yerinə sürünməsi, bəzilərinin isə ayağa qalxıb addımlamağa çalışması da gözdən qaçmayıb.**

Tamaşaçılara sevincli anlar yaşadan yarış iştirakçılarının valideynləri isə onların finişə tez çatmaları üçün hər cür yola əl ataraq körpələrdən daha çox həyəcanlanıblar. Gərgin keçən yarışda birinci yeri qızlar arasında 53 saniyə nəticə ilə Ulyana Nosova, oğlanlar arasında isə 27 saniyə ilə Fyodr Kuznetsov qazanıb. Xatırladaq ki, bu, Rusiya tarixindəki ən maraqlı hadisələr bölümündə yer alan xəbərlərdən biridir.





## Buğaları öldürmək üçün dərs keçirlər

**Fransanın Languedoc-Roussillion bölgəsindəki “French Tauromachy Center” adlı məktəbdə uşaqlara buğalarla döyüşməyin sirləri öyrədilir. 1982-ci ildə yaranan məktəbdə 1000 uşaq “təhsil alır”. Uşaqlara buğaları əsəbiləşdirməyin yolları öyrədilir.**

Qılınc zərbələri ilə buğa öldürməyi öyrənən uşaqlar samandan hazırlanmış buğaların üzərində məşq edirlər. Buğa öldürmək üzrə təhsil alan 10 yaşlı Nino adlı uşaq həftədə iki dəfə buğa öldürməyi öyrənir. Dostları onu bacarığına görə Əl Nino adlandırırlar. Məktəb hər il 20 matador yetişdirir. Məzun olan uşaqlar buğa döyüşlərinə çıxaraq məharətlərini göstərirlər. Ailələri isə uşaqlarını təhlükəyə atdıqlarını düşünmədən onlarla fəxr etdiklərini deyirlər.




**QOÇ** - Səhər saatlarından səhhətinizə xüsusi diqqət ayırmalısınız. Buna baxmayaraq, fəaliyyətlə bağlı aktivliyiniz də müşahidə olunacaq. İstənilən qərarınızda ədalətli və obyektiv olun.

**BUĞA** - Səhhətinizlə bağlı müəyyən problemləriniz hiss olunmaqdadır. Havalar ürəkaçan olsa, gəzintiyə çıxmağa, qonaq getməyə dəyər. Ağlınız kəsməyən digər dəvətləri isə təxirə salın.

**ƏKİZLƏR** - Saat 12-dən sonra maraqlı hadisələrlə rastlaşma ehtimalınız var. Axşam qonaqlıqlarda iştirak etmək şansınız da olacaq. Bu gün hansısa falçı və cadugərə müraciət etməyin.

**XƏRÇƏNG** - Ulduzlar xəbər verir ki, bu günü necə keçirsəniz, qarşıdakı günlərindəki ovqatınız da həmin minvalla ötüşəcək. Unutduğunuz adamlarla əlaqələrinizi dərinləşdirin ki, ruzisiz qalmayasınız.

**ŞİR** - Ailə-sevgi münasibətlərində mübahisələriniz gözlənilir. Təmkinli olun, kənar müdaxilələrə aludə olmayın. Tərəf-müqabilinizlə mehriban davranın. Səhhətinizə də fikir verin.

**QIZ** - Təəssüf ki, bu təqvimi bir qədər problemlə qarşılayacaqsınız. Ələlxüsus da saat 16-ya qədər ayıq-sayıqlığınızı artırmalısınız. Şəxsi problemlərinizi təkbaşına həll edin.

**TƏRƏZİ** - Qəlbən darıxdığınız bir neçə şəxslə rastlaşacağınız gözlənilir. Bu bölümə əsasən qohumluq və dostluq görüşləri şamildir. Öz gücünüzə güvənin. Bu gün uzaq yola çıxmaqdan vaz keçin.

**ƏQRƏB** - Yeni əlaqələrə başlamaq üçün ideal gündür. Müştərək fəaliyyətdə uğurlara yetişmək istəyirsinizsə, vaxt itirməyin. Gün ərzində Ayın bürcünüzdəki neqativ təsirini də yaddan çıxarmayın.

**OXATAN** - Bəri başdan yeni və riskli işlərinizi təxirə salmağa çalışın. Saat 15-ə qədər vaxtınızı adi işlərə həsr edin. Yoxsa xoşagəlməz olaylar baş verəcək. Sonrakı müddətdə aktivləşmək olar.

**OĞLAQ** - Maliyyə problemlərinizin artmasından narahat olmayın. Çünki bu gündən büdcənizdə kifayət qədər irəliləyiş olacaq. Bugünkü vaxtınızı isə bütünlüklə dua və ibadətə həsr edin.

**SUTÖKƏN** - Qətiyyətsiz hərəkətlərə yol verməyin. Hər hansı riskə getməyin, yeni işlərə başlamayın. Uzaq qohumlarınızla mütləq əlaqə saxlayın. Axşama yaxın təzə xəbər eşidəcəyiniz gözlənilir.

**BALIQLAR** - İxtiyarınızda olan bu təqvimi daha çox işə həsr etməlisiniz. Yeni layihələr üzərində baş sındırmağa dəyər. Qarşılıqlı müzakirələrdə təşəbbüskarlığı əlinizə alın ki, qalib olasınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Süd içib... mədə xərçəngindən qurtulmaq mümkündür?



**Çinin Tayvan bölgəsində İlan Universitetinin alimləri inək südünün tərkibindən alınmış zülal fraqmentinin mədə karsinomasına (xərçəng) qarşı güclü təsirə malik olduğunu müəyyən ediblər. Musavat.com xarici mənbəyə istinadla xəbər verir ki, bu yenilik mədənin bədxassəli şişinə qarşı hazırlanacaq preparatın əsasında dura bilər.**

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il 800 min insan bu xəstəlikdən dünyasını dəyişir. Mədə karsinoması ən məkrli xərçəng növlərindən sayılır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750